www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5 noyabr 2015-ci il Cümə axşamı № 246 (6274) Qiyməti 40 qəpik

## Xəbər

### Toyqabağı müayinədən keçən 161 gəncdə sifilis tapıldı

yazısı səh.14-də

## Gündəm

### Yeni təhlükə: NATO və KTMT Qarabağda üz-üzə gələ bilər



Rus qoşunlarının "KTMT" bayrağı altında Qarabağa gətiriləcəyi barədə xəbərlər çoxalır; erməni mətbuatı hiyləgərcəsinə bunu "Qarabağın itirilməsi" sayır; NATO rəsmisi Moskvanın oyunlarından narahatdır, ekspertlər isə deyir ki...

yazısı səh.13-də

### 3 dairədə seçkinin nəticələri ləğv oluna bilər

yazısı səh.3-də

### Rauf Mirqədirovun məhkəməsi başladı

yazısı səh.2-də

### Səid Dadaşbəylinin yaxınları MTN-dəki dəhşətlərdən prezidentə yazdı

yazısı səh.4-də

### Azərbaycanda biznesi necə asanlaşdırmalı - maliyyə professorundan maraqlı təkliflər

yazısı səh.10-da

### Akif Çovdarovun polkovnik işçisinin müəmmalı intiharı

yazısı səh.5-də

### Bir-birinin ardınca partlayan Rusiya təyyarələri; qəza, ya terror aktı...

yazısı səh.11-də

### "Azadlıq-2015" seçkinin nəticələrini tanımır

yazısı səh.7-də

### Azərbaycanda bir ildə falçılıq və cadugərliyə 200 milyon manat xərclənib...

yazısı səh.12-də

### Qul bazarındakı şəhid atası prezidentdən kömək istədi

yazısı səh.11-də

### Paytaxtda onlarla evdən oğurluq edən gənc qadın yaxalandı

yazısı səh.14-də

### "İdeal"da saxta ətirlər satılır

yazısı səh.15-də

## MTN çetesi "vəhhabi qarmağı" ilə məmurları necə ovlayıb

# ELDAR MAHMUDOV ABUTALIBOVU OĞLUNA GÖRƏ İLİŞDİRİBMİŞ - SENSASİYA

MTN-dəki qruplaşma İsrafil Abutalıbovun vəhhabi olmasından istifadə edərək BŞİH rəhbərini "yolub"; gömrük məmuru isə İŞİD-i maliyyələşdirmək ittihamı ilə şantaja məruz qalıb; hər ötən gün "MTN işi" barədə müdhiş məlumatlar alırıq...




yazısı səh.8-də

## Avrasiya ilğımı - Bakı üçün tələ, yoxsa nicat?

Qərblə Rusiya arasında seçim öncə dəyərlər arasında olacaq; Azərbaycan "qırmızı xətt"lərə yaxınlaşıb...

yazısı səh.9-da



Venera Rüstəmova

### Qətlə yetirilən iş adamının xanımı prezidentdən kömək istəyir

yazısı səh.6-da



### Eldar Həsənovu gündəmdə saxlayan səbəblər

yazısı səh.4-də



*Siyavuş Novruzov:*

### "YAP-a zidd addım atan üzvlərimizə güzəşt edilməyəcək"

yazısı səh.7-də

## Robert Sekuta: "ATƏT müstəqil dövlətləri nəyəsə vadar edə bilməz"



**"Hər hansı təşkilat, o cümlədən ATƏT suveren, müstəqil dövlətləri nəyəsə vadar edə bilməz". APA-nın xəbərinə görə, bu sözləri ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta ATƏT kimi nüfuzlu təşkilatın 20 ildən çox davam edən Dağlıq Qarabağ münaqişəsini həll edə bilməməsi barədə suala cavabında deyib.**

O bildirib ki, ATƏT müharibə sonrası ölkələr üçün sülh və rifah naminə əsas baza prinsiplərini müəyyən edib: "Bunların arasında ərazi bütövlüyü, güc tətbiq etməmək və güc tətbiqi ilə hədələməmək, öz müqəddəratını təyinetmə prinsipləri var. Burada iqtisadiyyat, insan haqları və təhlükəsizlik sahələri üzrə də məsələlər əksini tapıb. Bu təşkilat çərçivəsində ATƏT-in Minsk Qrupu həmsədrləri iki ölkəni bir araya gətirməyə, sülh yolu ilə nizamlanma istiqamətində irəliləyiş əldə etməyə çalışırlar. Bu təşkilat münaqişənin nizamlanma çərçivəsini müəyyən edir. Bu struktur olmadan biz əsrin əvvəlindəki vəziyyətə qayıda bilərik. Məhz bu baxımdan təşkilatın əhəmiyyəti bir daha diqqətə çatdırılır".

## Rza İbadov haqda 9 il öncə başladılan axtarışa xitam verildi

**Azərbaycanın sabiq deputatı haqda 9 il öncə başladılan axtarışa xitam verilib. Musavat.com-un əldə etdiyi məlumata görə, Milli Məclisin birinci çağırış üzrə deputatı olmuş Rza İbadov haqda 2006-cı ilin mayın 17-dən Nəsimi Rayon Məhkəməsinin qərarı ilə elan edilən axtarışa xitam verilib.**

Rza İbadov barəsində olan axtarış işinə Nəsimi Rayon Məhkəməsinin 27 oktyabr 2015-ci il tarixli qərarı ilə xitam verilib.

Xatırladaq ki, R.İbadovun axtarışa verilməsi ölkə gündəmində ciddi müzakirə mövzusu olmuşdu.

Sabiq deputat Cinayət Məcəlləsinin 148-ci *(təhqir)* və 147.2-ci *(ağır və ya xüsusi ilə ağır cinayətdə ittiham etməklə böhtan atma)* maddələri ilə təqsirli bilinirdi.

Rza İbadov 1966-cı ildə anadan olub. O, 1991-ci ildə Lomonosov adına Moskva Dövlət Universitetinin Tarix fakültəsini bitirib. 1990-1995-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali məclisinin uzvü olub, eyni zamanda Gənclər və idman komissiyasının sədri işləyib.

1995-2000-ci illərdə isə Azərbaycan Respublikası Milli məclisinin üzvü, Beynəlxalq Münasibətlər və Parlamentlərarası əlaqələr Komissiyasının sədri işləyib. O, Londonda yerləşən ABŞ-ın Huron Universitetində beynəlxalq münasibətlər üzrə magistr, sonra Fransa Beynəlxalq Münasibətlər institutunun nəznində fəaliyyət göstərən Strateji və Diplomatik Tədqiqatlar Mərkəzində beynəlxalq münasibətlər üzrə doktorluq dərəcələri alıb.

Qeyd edək ki, 2005-ci ildə parlament seçkiləri zamanı Rza İbadov ARDNŞ prezidenti Rövnəq Abdullayevlə rəqib olmuşdu. Rza İbadovun namizədliyini geri çəkməməsi böyük qalmaqala səbəb oldu. Məsələ daha da böyüdü və R.İbadova qarşı təzyiqlər başladı. Onun həbs ediləcəyi gözlənilirdi.

R.İbadov bu hadisələrdən sonra ölkəni tərk etdi. Sabiq deputat hazırda Londonda yaşadığı və bizneslə məşğul olduğu bildirilir.

❑ İlkin MURADOV

"Qaya Mətbuat Yayımı" MMC!
- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası ayda 26 dəfə nəşr olunan
"Yeni Müsavat" - 0.40 AZN
və bundan əlavə 2500 adda yerli
və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəhəri. Tel: (012) 564-63-45; (012) 598-35-22
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;

# İlham Əliyev: "Heç kim toxunulmaz deyil"

**"Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Bunun təşəbbüskarı ulu öndər Heydər Əliyevdir". APA-nın məlumatına görə, Azərbaycan prezidenti İlham Əliyev bunu noyabrın 4-də Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılış mərasimində ədliyyə və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə deyib.**



Dövlət başçısı bildirib ki, son illər Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi sürətlə gedir: "Məhkəmələrin fəaliyyəti bu məsələdə mühüm rol oynayır. Məhkəmələrə daxil olan şikayətlər getdikcə azalır. Gələcək islahatlar nəticəsində məhkəmə sistemində maksimum olunması vacibdir".

Prezident deyib ki, yeni tikilən bütün məhkəmə komplekslərində elektron sistem qurulub. Məhkəmə sistemində qərəzli yanaşma yolverilməzdir, korrupsiyaya qarşı mübarizə aparılması əhəmiyyətlidir. Bu sahədə beynəlxalq təcrübənin tətbiqi vacibdir. Cəmiyyətdə korrupsiya və rüşvətxorluq hallarına qarşı heç kim toxunulmaz deyil. Bu kimi hallara qarşı cəza tədbirləri davam etdiriləcək".

**Dövlət başçısı qeyd edib ki, son dövrlər sahibkarlara qarşı edilən ədalətsizliklərlə bağlı müxtəlif faktlar üzə çıxıb:** "Bu hallara yol verən şəxslər mövqeyindən və vəzifəsindən asılı olmayaraq cəzalandırılıb. Heç kim toxunulmaz deyil".

**Ölkə başçısı bildirib ki, Azərbaycan demokratiya yolu ilə gedir və ölkədə bütün azadlıqlar təmin olunub:** "Son parlament seçkiləri xalqımızın iradəsini əks etdirir. Milli Məclisə seçkilər şəffaf və ədalətli keçirilib. Ölkədə inkişafı əngəlləyən amillər, o cümlədən korrupsiya halları aradan qaldırılmalıdır. Buna nail olmaq üçün isə güclü siyasi iradə və ictimai dəstək var".



## Rauf Mirqədirovun məhkəməsi başladı

**Bakı Ağır Cinayətlər Məhkəməsində jurnalist Rauf Mirqədirovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib. Virtualaz.org saytının prosesdə iştirak edən müxbirinin verdiyi məlumata görə, prosesə hakim Əlisultan Osmanov sədrlik edib. Prosesdə təqsirləndirilən şəxsin anket məlumatlatı dəqiqləşdirilib.**

Vəkil Fuad Ağayev müdafiə etdiyi şəxsin şüşə qəfəsdən çıxarılması, barəsindəki həbs-qətimkan tədbirinin ləğv edilməsi və cinayət işində adı hallanan Ermənistanın keçmiş MTN naziri David Şahnazaryanın və Laura Baqdasaryanın əlavə şahid qismində məhkəməyə çağırılması ilə bağlı vəsatət qaldırıb. Vəsatətlər təmin olunmayıb. Məhkəmə baxışı noyabrın 18-ə kimi təxirə salınıb. Növbəti proses qapalı keçiriləcək.

Rauf Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. O, Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunur.

R.Mirqədirov barədə 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Daha sonra Mirqədirov barədəki həbs-qətimkan tədbirinin müddəti bir neçə dəfə uzadılıb.

**Jurnalist ittihamları rədd edir və həbsinin fəaliyyəti ilə bağlı olduğunu deyir.**




## QHT Şurası təlimlərə başlayır

**Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyi QHT nümayəndələri üçün aşağıdakı mövzularda təlimlərə başlayır:**

Layihə təkliflərinin hazırlanması.

İctimai problemlərin müəyyənləşdirilməsi və onların həllinə yeni yanaşmalar.

Arzu edən QHT nümayəndələri Şura Katibliyinə müraciət edə bilərlər.

Telefon: (+994) 12 493 17 80, 493 17 32
Email: cbabayeva@cssn.gov.az
Müraciət forması
Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurasının Katibliyinə

ƏRİZƏ

________________________________________
_________ Birliyinin
(İctimai Birliyin adı)
__________________________
______________________________________
(Vəzifəsi) (Soyadı, adı, atasının adı)
________________________________________
_______ mövzusunda
(Təlimin adı)
təlimdə iştirakına köməklik etməyinizi xahiş edirik.
________________________________________
(Vəzifəsi) (İmza) (Adı və soyadı)
_____________________
(Tarix)

## BMCMİ əxlaqsızlıq yuvası aşkarladı

**Bakıda qadın kirayədə yaşadığı evi əxlaqsızlıq yuvasına çevirib. Bu barədə məlumatı musavat.com-a hadisə şahidləri məlumat verib. Məlumata görə, Sevinc Həziyeva adlı qadın Bakıda kirayədə yaşadığı evi əxlaqsızlıq yuvasına çevirib. Ev sahibi və qonşular vəziyyətdən narazı olaraq hüquq-mühafizə orqanlarına müraciət ediblər.**

Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin əməkdaşları Neftçala rayon sakini Sevinc Həziyevanın Qara Qarayev prospektində kirayədə yaşadığı evdə əməliyyat keçirib.

Faktla bağlı Cinayət Məcəlləsinin 244-cü maddəsi ilə cinayət işi açılıb. Nizami Rayon Polis İdarəsində araşdırılma aparılır.

❑ İlkin MURADOV

## Dövlət Departamenti parlament seçkiləri ilə bağlı açıqlama yaydı

**ABŞ Dövlət Departamenti noyabrın 1-də Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə bağlı açıqlama yayıb. APA-nın məlumatına görə, açıqlamada Azərbaycan hökumətinin ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun (DTİHB) seçkilərə lazımi sayda müşahidəçinin gəlməsinə imkan verməməsindən, buna görə də ATƏT/DTİHB-in seçkiləri müşahidə etmək imkanı olmamasından təəssüf ifadə olunub.**

"ATƏT/DTİHB-in iştirakı olmadan biz fundamental azadlıqlara qoyulan məhdudiyyətlərin aradan qaldırılmasına dair bu qurumun əvvəlki məsləhətlərini icra etməkdə Azərbaycanın irəliləyişə nail olduğunu deyə bilmərik. Ölkədə məhdud siyasi mühit olmasına dair narahatlığımız davam edir və biz Azərbaycan hökumətini sərbəst toplaşma, birləşmə azadlıqlarına, ölkənin beynəlxalq öhdəliyi olan fikir azadlığının, o cümlədən media azadlığının təmin edilməsinə hörmətlə yanaşmağa, həmçinin bu istiqamətdə DTİHB də daxil olmaqla ATƏT-lə işləməyə çağırırıq. Biz Azərbaycan hökuməti və xalqı ilə güclü, sabit, demokratik və firavan gələcək qurmaq istiqamətində işləməyə sadiq qalırıq", - deyə açıqlamada qeyd olunur.

## İki rayonun polis rəisi dəyişdirildi

**Daxili işlər orqanlarında yeni təyinatlar olub. APA-nın məlumatına görə, bu barədə daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb. Əmrə əsasən, Salyan Rayon Polis Şöbəsinin rəisi Namiq Həsənov tutduğu vəzifədən azad edilərək Bakının Suraxanı Rayon Polis İdarəsinin, Suraxanı Rayon Polis İdarəsinin rəisi Təhmasib İbrahimov isə Salyan Rayon Polis Şöbəsinin rəisi vəzifəsinə təyin edilib.**

## Eldar Mahmudovun atasının adına olan məktəb söküldü

**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun atası, mərhum akademik Əhməd Mahmduvun Naxçıvanda adını daşıyan məktəbin önündəki büstünün götürüldüyü barədə məlumat yayılmışdı.**

Mətbuatın dərc etdiyi məlumatda qeyd olunurdu ki, həmin büst Eldar Mahmudov işdən azad edildikdən uçurulub. Xəbərə görə, Əhməd Mahmudovun adını daşıyan lisey ləğv edilib. İndi həmin ərazidə fizika-riyaziyyat təmayüllü yeni lisey tikilir. Naxçıvandakı mənbənin sözlərinə görə, ola bilər ki, mərhum eks-nazirin atasının büst bu səbəblə götürülüb. Qeyd edək ki, Eldar Mahmudov ölkə prezidentinin sərəncamı ilə oktyabrın 17-də milli təhlükəsizlik naziri vəzifəsindən azad edilib. Bundan sonra isə Milli Təhlükəsizlik Nazirliyində ciddi yoxlamalar aparılıb və xeyli vəzifəli şəxs həbs olunub (modern.az).

YENİ MÜSAVAT
N 246 (6274) 5 noyabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# 3 dairənin nəticələri ləğv oluna bilər

## Bahar Muradova İqbal Ağazadə və Pənah Hüseynin seçki mübarizəsindən danışdı: "Hər iki şəxs kifayət qədər prinsipial, seçki məsələsinə ciddi yanaşan adamlardır"

**1 noyabr parlament seçkiləri ətrafında müzakirələr davam edir. Xaricdən seçkilərlə bağlı reaksiyalar gəldiyi zamanda daxildə də seçki nəticələrindən narazı qalan iddialılar saxtakarlıq faktları ilə əlaqədar faktlarla müvafiq qurumlara təqdim edəcəklərini bildiriblər.**

Ən çox qanun pozuntularının olduğu dairələr sırasında 63 saylı Sabirabad birinci, 35 saylı Xətai üçüncü və 95 saylı Tərtər seçki dairələrinin adı çəkilir. Qeyd edək ki, 63 saylı dairədən namizəd olan AXP sədri Pənah Hüseyn bəyanatında qanun pozuntularından bəhs edib elan edilmiş nəticələri tanımadığını bəyanlayıb.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** mətbuata açıqlamasında hüquqi prosedurların həyata keçirildiyini deyib. "İlk şikayətimiz verilib. İki məntəqənin yenidən sayılmasını istəmişik. 18 və 26 saylı seçki məntəqələrinin. 18 və 26 saylı seçki məntəqələrinin protokollarını bizə verməyiblər. O iki məntəqə ilə də Araz Əlizadəni qalib elan ediblər. Araz Əlizadənin faktiki olaraq 900 səsi var. 1290 səs də hərbi hissədən ona verilib. Dairə sədri barədə Baş prokurorluğa şikayət edəcəyik".

**Barəsində daha çox danışılan üçüncü dairənin şanslı iddialısı Şəhriyar Məcidzadənin (Tərtər rayon İcra Hakimiyyətinin sabiq başçısı Sərdar Həmidovun oğlu ) seçki qərargahı isə bəyanatında qanun pozuntularından bəhs edib və ortaya konkret faktlar qoyub.** Məlumata görə, hazırda hər üç seçki dairəsi ilə bağlı araşdırmalar gedir və sonda hakimiyyət seçkilərin nəticələrinin legitimliyini qəbul etdirmək üçün bu üç dairənin nəticələrini ləğv edəcək.

Milli Məclis sədrinin müavini Bahar Muradova isə qəzetimizə açıqlamasında Ümid Partiyasının sədri İqbal Ağazadə və AXP lideri Pənah Hüseynin ciddi qanun pozuntuları ilə üzləşməsi barədə fikirlərinə münasibət bildirib. B.Muradova deyib ki, bu barədə konkret məlumata malik deyil: "Mənim kifayət qədər imkanlarım yoxdur ki, onların arqumentlərinin nədən ibarət olduğunu araşdırım. Amma onu bilirəm ki, hər iki şəxs kifayət qədər prinsipial, seçki məsələsinə ciddi yanaşan adamlardır. Belə faktları varsa, yəqin ki, müvafiq qurumlara təqdim ediblər, yaxud təqdim edəcəklər. O da konkret halda dəyərləndirilməlidir. İstənilən halda seçki prosesində bu və ya digər tərəfin narazı qalması ehtimalı var. O mənada bu, hər kəs üçün gözlənİəln ola bilər. Nəzərə alsaq ki, İqbal Ağazadənin dairəsində digər bir namizəd Araz Əlizadə mübarizə aparırdı, prosesin özündə də onların hər ikisinin narahatlığı mətbuata sızırdı. O mənada bunun belə mübahisəli olacağını təxmin etmək mümkün idi. Hər halda hesab edirəm istər İqbal Ağazadə, istərsə, Araz Əlizadə öz mövqeyini müdafiə etmək üçün sona qədər gedəcək. Araşdırılsın, baxılsın, ədalət kimin tərəfindədirsə, o da üstün gələcək. Ona görə mənimçün konret kiminsə marağını müdafiə etmək kimi bir məsələ yoxdur. Əsas odur ki, haqq-ədalət yerini tapsın. Onların hər hansı biri güzəştə gedən deyil. Obyektiv mövqe bildirmək müvafiq qurumların işidir".



Bahar Muradova

**YAP-ın icra katibinin müavini Siyavuş Novruzov** "Yeni Müsavat"a bildirdi ki, bu barədə məlumatsızdır: "Məlumatım yoxdur. Mənə elə gəlir ki, hər hansı problem yoxdur, seçkilər normal keçib".

**Yeri gəlmişkən, Milli Məclisin ilk iclasının keçiriləcəyi tarix hələ müəyyənləşməyib.** Bunu Cebhe.info-ya Milli Məclisin mətbuat xidmətinin rəhbəri Akif Təvəkküloğlu deyib. Onun sözlərinə görə, qanuna uyğun olaraq seçki ilə bağlı prosedur başa çatandan sonra parlamentin ilk iclası müəyyənləşəcək: "Mərkəzi Seçki Komissiyası seçilən deputatların siyahısını Konstitusiya Məhkəməsinə təqdim etməlidir. Konstitusiya Məhkəməsi isə deputatların sənədlərini təsdiqləyəndən sonra parlamentin ilk iclası müəyyənləşdiriləcək". Xatırladaq ki, noyabrın 1-də Milli Məclisə keçirilən seçkilərin ilkin nəticələrinə görə, 776 namizəd arasından 125 mandatı qazananların siyahısı açıqlanıb. Milli Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq, parlamentin ilk iclasını ən qocaman deputat açır, yeni seçilən deputatların siyahısını oxuyur və sədr seçilənədək birinci iclası aparır. Beləliklə, Zeynəb Xanlarova V çağırış Milli Məclisin ilk iclasına sədrlik edəcək. Onun təklifi ilə Hesablayıcı Komissiya və bu barədə qərar qəbul edildikdən sonra sədr seçiləcək. Xatırladaq ki, 2005-ci ildə III çağırış Milli Məclisin ilk iclasını Murtuz Ələsgərov aparıb. 2010-cu ildə IV çağırış Milli Məclisin ilk iclasını ən yaşlı deputat Cəlal Əliyev açmalıydı, lakin o, xəstə olduğundan parlamentə gəlməmişdi. Bu səbəbdən də IV çağırış Milli Məclisin ilk iclasını parlamentin digər yaşlı deputatı Fəttah Heydərov (1938-ci il təvəllüdlü) açmışdı.

❑ **Cavid TURAN**

# Elə yaşa ki...



**Hüseynbala SƏLİMOV**

**Həyatda maraqlı adamlar çox olur. Kim onlara rast gəlməyib? Bəli, tələbəlik vaxtı bir tacik dostum vardı. Hər dəfə həftənin sonunda deyirdi ki, birinci gündən yeni həyata başlayacam. Birinci gün gəlirdi, ikinci gün gəlirdi, di gəl, o, təzə həyata başlaya bilmirdi ki, bilmirdi...**

İndi elə biz də onun kimiyik. Hər seçkidən sonra qayıdırıq ki, daha gələn dəfə belə olmayacaq, gələn seçki nəsə edəcəyik. Amma növbəti seçki gəlir və biz heç nə edə bilmirik, parlamentdə, bələdiyyələrdə yer almaq bir tərəfə, bizə heç efir vaxtı da vermirlər...

Bu efir vaxtı mənim üçün az qala şəxsi problemə çevrilib. Seçkidən mənim üçün maraqlı olan yalnız budur. Amma insanlara efir vaxtı vermirlər ki, vermirlər! Ona görə də adamlara demək də olmur ki, durun, seçkiyə gedin və namizədliyinizi irəli sürün. Hər seçki vaxtı belə deyəndə insanlar qayıdır ki, hara gedək, niyə gedək, bizə heç efir vaxtı da vermirlər. Sən də qalırsan, necə deyərlər, kor-peşman, bir söz deyə bilmirsən ki, bilmirsən...

Nə etmək olar? Dərdimizi kimə söyləyək? Artıq bir fikri qəbul etməyə məcbursan ki, bizim dövranımız bitmək üzrədir. Bizsə dövran bitə-bitdə daha bəlağətli və daha gur danışmağa başlayırıq. Amma gəl ki, bunun bir faydası varmı?

**Ən dəhşətlisi odur ki, həyat adama bir dəfə verilir. Sözümüzü və özümüzü təsdiq etmək üçün bizim bir daha şansımız olmayacaq...**

O gün Rusiya saytlarının birində F.Dostoyevski və imperator haqqında maraqlı bir yazı oxudum. Oradan bir fikir yadımda qaldı. Deyir ki, elə yaşa ki, sanki dünyanın taleyi səndən asılıdır...

Bəlkə də F.Dostoyevski haqqında bu sözlər müəyyən qədər özünü doğruldur və hətta yerinə də düşür. Ağır, dəhşətli katorqa həyatı, uzun ədəbi və intellektual axtarışlar. Rusiyada fəlsəfi fikir zəif olub. Amma əvəzində iki çox böyük filosof-yazıçı olub. Hər halda, mənə belə gəlir... Onlardan biri Tolstoy, digəri isə Dostoyevskidir. Bəlkə də birincisi Dostoyevskidir...

**Amma məsəl var, deyir ki, özünlə özümdən danış. Gəl ki, danışmağa bir söz də yox. Nə bizim, nə də bugünkü Rusiya ziyalılarının haqqında nəsə işıqlı bir söz demək olduqca çətindir...**

Bizə gəldikdə isə daha "təzə həyat" başlamaq haqqında da düşünmürük. Düşünürük ki, köhnə həyatı bir təhər başa vursaq, bu, özü də az iş deyil. Elə ona görə də gurultulu sözlər daha bizə yaraşmaz...

Fəqət, nə etmək olar? Yaşamağa məhkumuq. Özü də bu ölkədə yaşamağa məhkumuq. Baş verənlərin, deyilənlərin sanki bizə dəxli yox. Böyük əksəriyyət özünün xoşbəxt həyatını yaşayır. Bizə isə bunu sadəcə, seyr etmək qalır...

Bütün ömrümüz boyu "elə yaşa, belə yaşa!" dedik. Amma bir nümunə göstərə, həqiqətən də qürur doğura biləcək həyat yaşaya bilmədik. Ritorikada biz də mahirik. Amma kimə lazım o?..

**Artıq mən "filan vaxt filan şey olacaq" deyə yaza bilmirəm. Mənası varmı? Ona görə yaza bilmirəm ki, siyasi tərəfdaşları olmayan yazar, jurnalist ordusu olmayan bir bayraqdar kimidir...**

Əvvəllər yalan-doğru müxalifət vardı. Biz də yazırdıq ki, filan şey elə ola, belə ola bilər. Doğrulanı doğrulurdu, doğrulmayanı isə... İndi nə yazaq? Bircə o qalır ki, yazaq ki, hakimiyyətin ürəyi yumşalıb filan şeyi edəcək...

Amma artıq neçənci dəfə olmalıdır bu? Aydındır ki, hakimiyyətin ürəyi yumşalan - filan deyil. Ona görə də hakimiyyətə jestlər etməyə dəyməz. Bunu son bir neçə ilin dəqiq siyasi nəticəsi kimi qəbul etmək gərəkdir...

Adamın sadəcə, illərə heyfi gəlir. Bu illər ərzində nə qədər iş görmək olardı və nə qədər maraqlı həyat yaşamaq olardı!

Fəqət, olmadı. Ona görə də gurultulu sözlərə ehtiyac yox. Sadəcə, demək lazımdır ki, elə yaşa ki, heç vaxt "Bir daha yaşamalı olsaydım..." demə! Əgər belə deyirsənsə, əgər fikrindən belə keçirsə, deməli nəsə qaydasında deyil...

Bu illər ərzində müəyyən təcrübə də oldu. Müəyyən qənaət də oldu. Fəqət, onu bölüşməyə, bu nəticələri ötürməyə bir kimsə yox...

Ən böyük qənaət isə bilirsiniz nədir? Burada yadıma nə qədər gülməli olsa da L.Tolstoyun uşaqlar üçün yazdığı bir nağıl düşür. İki oğlan uşağı və ayı haqda nağıl yadınızdadırmı?..

**Oğlanlardan biri o birindən soruşur ki, ayı nə dedi? Qayıdır ki, ayı dedi ki, belələrilə dostluq etmə. İndi mən də gənc siyasətçilərə kimlərlə dostluq etmək lazım olmadığını deyərdim. Amma əfsus...**

# Müsavatın seçkiyə gedən namizədi Divana çağırılmayacaq...

## Partiya rəhbərliyi bu dəfə məsələnin müzakirə olunacağını istisna edir, namizəd isə qərarı gözləyir...

**79 saylı İmişli Seçki Dairəsindən deputatlığa namizəd olmuş İltizam Əkbərli seçkinin nəticələrindən rəsmi şikayət verib. O, musavat.com-a açıqlamasında bildirib ki, artıq Dairə Seçki Komissiyasına və Mərkəzi Seçki Komissiyasına şikayət göndəriblər: "Bizə heç məntəqə seçki komissiyalarında protokolları verməyiblər. Cəmi 5 məntəqə üzrə protokol ala bildik, 43 məntəqədən əksəriyyətinin protokolu mənim müşahidəçilərimə verilməyib. Ancaq əlimizdə dairə seçki komissiyasının yekun protokolu var".**

Qeyd edək ki, İ.Əkbərli Müsavat Partiyasının siyahısından seçkilərdə sonadək iştirak edən yeganə namizəd idi. Partiya seçkilərə üç gün qalmış boykot qərarı versə də, 25 namizəddən təkcə İ.Əkbərli partiyanın qərarına qarşı gedərək sonadək seçkiyə getmişdi. Müsavat isə namizədliyini geri çəkməyən namizədlərin məsələsinin partiyada müzakirəyə çıxarılacağını bildirmişdi.

**İ.Əkbərli məsələ ilə bağlı bildirib ki, partiya Divanının qərarına hörmət edəcək:** "Qərara hörmətlə yanaşacam". Müsavatın icra aparatının rəhbəri Gülağa Aslanlı isə deyib ki, hazırda partiyanı hansısa üzvü cəzalandırmaq yox, seçki saxtakarlığı daha çox narahat edir: "Bizi hazırda Azərbaycan hakimiyyətinin etdiyi seçki saxtakarlığı daha çox maraqlandırır. O məsələ zamanı gələndə, müzakirə olunacaq. Divanın iclası noyabrın 10-da olacaq. Ancaq İltizam Əkbərlinin məsələsinin həmin zaman müzakirə olunacağını deyə bilmərəm. Zamanı gələndə, onu da müzakirə edəcəyik".



İltizam Əkbərli

**Qeyd edək ki, 79 saylı İmişli Seçki Dairəsindən deputatlığa namizəd olmuş İltizam Əkbərli Müsavatın boykot qərarını şərh etmədən seçkidə sonadək iştirak edəcəyini bildirmişdi. O, həmçinin 2005-ci ildə də namizədliyini fərdi şəkildə verərək deputat seçilmişdi. Həmin vaxt onun namizədliyi üç partiyanın birgə formalaşdırdığı "Azadlıq" seçki bloku tərəfindən irəli sürülməmişdi. Siyahıdan kənar namizədliyini verən namizəd qalib gəlmişdi. Halbuki onda da bir sıra müxalifət qüvvələri parlamentə getməmək barədə qərar vermişdilər. 2010-cu ildə isə İltizam Ələkbərlinin namizədliyi qeydə alınmamışdı.**

❑ **RÖYA**

# Eldar Həsənovu gündəmdə saxlayan səbəblər

**Sabiq baş prokuror, Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda və Bosniya və Herseqovinadakı fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənov zaman-zaman ölkə mətbuatının gündəmində olan şəxslərdəndir. Ölkədəki son proseslərdə də onun adı hallandı.**



**Qabil Hüseynli:**
**"Onun professionallığı və peşəkarlığı daha çox diqqətçəkəndir"**



**Əvəz Zeynallı:**
**"O, ciddi postlara iddiaçıdır"**



E.Həsənovun MTN rəhbərliyinə gətiriləcəyi barədə səslənən iddialar, səfirin Bakıya qəfil gəlişi və Vergilər Nazirliyində yüksək vəzifədə işləyən qardaşının ətrafında gedən söz-söhbətlər diqqəti cəlb edir.

Doğrudur, sabiq baş prokuror 3 noyabrda "Yeni Müsavat"a verdiyi müsahibədə barəsindəki iddiaları alt-üst edən açıqlama verməşdi. Məhz bundan sonra onunla bağlı mətbuatın dərc etdiyi xəbərlərdə səngimə müşahidə olundu.

Maraqlıdır ki, hər zaman yüksək postlara iddiaçıların adları hallananda bu şəxslərdən biri, bəlkə də, birincisi E.Həsənov səfir olur. Bütün bunların fonunda onunla bağlı bir sıra suallar beyinləri fəth edir.

E.Həsənov nə üçün bu qədər cazibədar siyasətçidir, yaxud onu bu qədər cazibədar siyasətçi edən amillər nədir?

**Politoloq Qabil Hüseynli** hesab edir ki, E.Həsənov ağıllı siyasətçi olduğundan daim gündəmə gəlir: "O, vaxtı ilə yüksək perfomans sərgiləyən siyasətçi olub. İnsanlarla əlaqə qurarkən, yüksək mədəniyyət, qarşılıqlı münasibət yaratmağı bacaran şəxsdir. Eldar Həsənov peşəkarlar arasında peşəkar, intellektuallar arasında intelektlidir, insanlar arasında mədəniyyətli insan kimi ad çıxara bilib. Onun professionallığı və peşəkarlığı daha çox diqqətçəkəndir. Bu səbəblər onu daim gündəmə gətirən amillərdir. Onun sağlam, çevik hərəkətlərini də ön plana çəkmək olar. Bir şəxsiyyət kimi, müsbət parametrlərə cavab verən şəxs olduğundan, onu tanıyanlar arasında yüksək hörmətə malikdir".

**Q.Hüseynli sabiq baş prokurorun Azərbaycanda yüksək postlardan birinə gətirilməsinin ölkə üçün verə biləcəyi müsbət amillərdən də söz açdı:** "Təkcə Eldar Həsənovun yox, istənilən qabiliyyətli şəxsin vəzifəyə gətirilməsinin tərəfdarıyam. O cümlədən də Eldar Həsənovun. Amma bu məsələ ölkə başçısının səlahiyyətindədir. Komandanı prezident formalaşdırır. Ölkə başçısı yaxşı bilir ki, kimlər işləyə bilər, kimlər yox. Təkcə peşəkarlıq və yüksək keyfiyyətlər yetmir. Psixoloji cəhətdən komandada yumşaqlıq yaradan cəhətlər də lazımdır. Bu tipli cəhətləri nəzərə alaraq, prezident komandasını formalaşdırır. Hesab edirəm ki, Eldar Həsənov kimi vətənini sevən şəxslər ölkəyə xeyir verə bilərlər".

**Politoloq gələcəkdə E.Həsənovun hər hansı bir vəzifəyə gətirilməsi ilə bağlı da proqnoz verdi:** "Bu məsələdə proqnoz vermək çətindir. Hazırda siyasi vəziyyətin Eldar Həsənovun vəzifəyə gətirilməsinə uyğun olmadığı qənaətindəyəm. Amma mümkün olmayan şey yoxdur. Fəlsəfədə səbəbiyyət və zərurət anlayışları var. Burdan çıxış etsək, deyə bilərik, bəzən elə bir təsadüflərə rast gəlmək mümkündür ki, istənilən şəxsin önə çıxmasının şahidi oluruq. Bu məsələdə ölkə rəhbərinin siyasi iradəsini əsas götürüb, deyə bilərəm ki, cəmiyyətdə hər şeyi inkar etmək olmaz".

**E.Həsənov barədə zaman-zaman rəhbəri olduğu mətbuat orqanında xəbərlər dərc edən "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı üç ölkədəki səfirimiz barədə daim birmənalı düşündüyünü söylədi:** "Bizim sayt və qəzetdə onun əleyhinə də yazılar gedib. Amma bu media azadlığı ilə bağlı olan məsələ idi. Bizim əlimizə fakt gəlib, görmüşəm ki, Eldar Həsənovun əleyhinədir, yenə də dərc etmişəm. Amma bununla belə, ona qarşı münasibətim fərqlidir".

**Niyə tez-tez onun adı gündəmə gəlir? Əvəz Zeynallı düşünür ki, E.Həsənov çətinliklərin öhdəsindən gələ bilən, milli barış ruhlu şəxsdir:** "Onu kifayət qədər qüdrətli, cəsarətli siyasi fiqur hesab edirəm. Düşünürəm ki, Azərbaycanı bu gün tam yetişmiş şəxsiyyətlərindən biridir. Bütün elektoratlarda ona yaxın kəsimlər var. Yüksək klanlarda onun adamları var. Fikirlərim onun lehinə səslənə bilər. Amma faktiki vəziyyət belədir. Onun adı ona görə insanların yadına tez-tez düşür ki, Eldar Həsənovun Azərbaycan üçün önəmli şəxs olduğunu bilirik. Təcrübəli, əqidəli şəxsdir. Məncə, o, ölkəmizin ağır vəziyyətləri üçün önəmli şəxslərdən biridir".

**"Xural" rəhbəri E.Həsənovun yüksək vəzifəyə gətirilmə ehtimalının olduğunu bildirdi:** "O, son yazılarımıza çox sərt cavab verir. Adama deyərlər ki, ölkəni xilas edəcək şəxslərdən sayılırsan, amma deyirsiniz ki, mənə şər atırlar. Belə məsələlərdə tərəddüd edirəm. Eldar Həsənov ölkənin ən iri postlarına real namizədlərdən biridir. Bunun fərqindəyəm. Bilirəm ki, o, ölkəni idarə edən şəxsin qəzəbinə tuş gəlmək istəmir. Amma fakt-faktlığında qalır. Hesab edirəm ki, o, ciddi postlara iddiaçıdır. Əgər prezident onun keyfiyyətlərindən yararlansa, Azərbaycan və hakimiyyət üçün xeyri ola bilər".

❑ **Cavanşir ABBASLI**

# Səid Dadaşbəylinin yaxınları MTN-dəki dəhşətlərdən prezidentə yazdı

## "Şərlənmiş balalarımız günahsız olaraq ittiham olunaraq azadlıqdan məhrum edildilər; işgəncə səbəbindən toyuna bir ay qalmış Emin Məmmədov öldürüldü"

**Həbsdə olan Səid Dadaşbəylinin Müdafiə Komitəsi prezident İlham Əliyevə, baş prokuror Zakir Qaralova və mətbuata müraciət edib. "Yeni Müsavat"a daxil olan müraciətdə prezidentə 17 oktyabr sərəncamı əsasında nazir Eldar Mahmudovun vəzifəsindən kənarlaşdırılması və ardınca bir qrup zabitin həbs edilməsinə görə təşəkkür edilir:**

"MTN-in oğurluqla, soyğunçuluqla məşğul olan yüksək rütbəli məmurlardan təşkil olunmuş cinayətkar dəstə fəaliyyəti dayandırmağınıza görə Sizə dərin təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Biz əmin idik ki, Milli Təhlükəsizlik Nazirliyində baş verən bu biabırçılığı gec-tez aşkar edəcəksiniz. Hələ 2008, 2009, 2010-cu illərdə nazirliyin əməlləri barədə sizə müraciət etmişdik. Ancaq bu müraciətlərin sizə çatmadığını da bilirdik. Çünki nazirliyin sabiq rəhbərliyi buna imkan vermirdi. Sonuncu dəfə sizinlə bərabər Respublika Prokurorluğuna, Ədliyyə Nazirliyinə, Milli Məclisə, Prezident Administrasiyasına müraciət göndərsək də, reaksiya olmadı".



**Valideynlər 2007-ci ilin yanvarında MTN-in əməliyyat qrupunun Səid Dadaşbəyli və onunla bərabər 15 nəfəri həbsini xatırladaraq bildirir ki, gənclərə qarşı dövlətə xəyanət, hakimiyyəti zorakarlıq yolla ələ keçirmək, qanunsuz silah sürsat və narkotik maddələrin saxlanması ilə bağlı şahidsiz, sübutsuz, əsassız olaraq işgəncə verərək ( hətta işgəncə zamanı toyuna bir ay qalmış Emin Məmmədov öldürüldü) ittihamlar irəli sürüldü:** "Bundan əlavə 15 nəfəri "Hizbullah", "Fəth", "Hizb-ut-təxrir" və digər dini təşkilatların, hətta nə qədər absurd səslənsə də, masonçuluqda ittiham etdilər. Beləliklə, bu saxta ittihamlarla şərlənmiş balalarımız günahsız olaraq ittiham olunaraq azadlıqdan məhrum edildilər".

**Müraciətdə gənclərin 10 ay MTN-in təcridxanasında görünməmiş işgəncələrə məruz qaldığı bildirilir:** "10 aylıq işgəncədən sonra 2 ay qapalı məhkəmə prosesinə start verildi. Hakim Ənvər Seyidov "mən sizə heç bir köməklik edə bilməyəcəm. Bu MTN-nin sifarişidir, günahınız olsa da, olmasa da hökm oxumalıyam" deyərək əlacsızlığını və sifarişli hökm çıxaracağını gizlətməmişdi. Nəticədə Səid Dadaşbəyli ilə 3 nəfərə 14 il, qalanlarına isə 12-13 il azadlıqdan məhrumetmə hökmü çıxarıldı. Apelyasiya Məhkəməsi 2008-ci il mart ayında yenə qapalı şəraitdə 2-3 saat ərzində şahidsiz, sübutsuz və qaldırılan vəsatətləri rədd etməklə əvvəlki hökmü qüvvədə saxlamaqla yekunlaşdı. Səid Dadaşbəyli iqtisadçıdır, 5 dili mükəmməl bilir. 1998-ci ildən həbs olduğu günə kimi "Azeri-Mİ Drilling Amerika-Azərbaycan" müştərək neft şirkətində koordinator vəzifəsində çalışıb. İşlədiyi müddətdə ondan heç bir narazılıq olmayıb və hörmətlə yanaşılıb. Səid Dadaşbəyli ziyalı mühitdə böyüyüb və tərbiyə alıb. Onun amalı və istəyi Azərbaycanda islam dininə radikal deyil, sivil yanaşmanı ictimailəşdirmək idi. Həm də ifrat dindarları sevmirdi. Cənab prezident, Səid Dadaşbəylinin dövlətə qarşı heç bir iddiası olmayıb, çünki siyasi mənsubiyyəti yox idi. 2 övlad atası olan Səid Dadaşbəylinin məhkəmə ərəfəsində ailəsi ölkəni tərk etməyə məcbur olmuşdu. Cənab Prezident, MTN-nin bu qanunsuzluğundan 8 il 9 ay ötsə də, heç vaxt ümidimizi itirmədik. Düşünürdük ki, bir gün gələcək haqq-ədalət öz yerini tutacaq. İnanırıq ki, 15 gəncə qarşı olan bu özbaşınalığın aradan qaldırılmasına göstəriş verəcəksiniz".

**S.Dadaşbəylinin və iş üzrə həbsə alınan digər şəxslərin yaxınları ümidlərinin yalnız prezidentə olduğunu, ona inandıqlarını qeyd ediblər. Ümid edirlər ki, prezident iş üzrə ədalətli qərarın verilməsinə yol açacaq göstərişlər verəcək.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# MTN zabitlərinin dəhşətli intiharlarının izi qurumdakı kabinetlərə uzanır

## İki MTN polkovnikini intihara sürükləyən kim olub?

**Milli Təhlükəsizlik Nazirliyinin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi, general-mayor Akif Çovdarov haqda ziddiyətli xəbərlər yayılır.**

**Onun gah saxlanıldığı, gah da nəzarətə götürüldüyü bildirilir. “Azadlıq.info”nun məlumatına görə, keçmiş nazirin törətdiyi qanunazidd hərəkətlərin əsas iştirakçısı olan A.Çovdarov artıq həbs edilib. Qəzet yazır ki, Çovdarov 2 gün əvvəl Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsinin əməkdaşları tərəfindən tutulub. Onun Bakıdakı biznesini isə qardaşı Asif Çovdarov idarə edir.**

Bəzi saytlar isə Akif Çovdarovun MTN-dəki vəzifəsindən azad edilməsi və tutulması barədə xəbərlərin doğru olmadığını iddia edirlər.

Əvvəllər həbsxana işçisi olan Akif Çovdarov Eldar Mahmudova ən yaxın kadr hesab olunur. Nazirin bütün gizlinləri haqda məlumatlıdır. E.Mahmudov 1993-2003-cü illərdə İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə İdarəsinin və İqtisadi sahədə Əməliyyat-Əlaqələndirmə Bürosunun rəisi vəzifəsində işləyəndə Çovdarovu həmin idarəyə, milli təhlükəsizlik naziri təyin olunanda isə özü ilə MTN-ə gətirib. A.Çovdarov da Eldar Mahmudovun kassirlərindən biri kimi tanınır. Qəzetin yazdığına görə, onun MTN-də əsas vəzifəsi Azərbaycana gələn iş adamlarını soymaq olub. Rüşvət tələb edilərək təhdid edilən həmin iş adamları da Baş Prokurorluğa və Prezident Administrasiyasına etdiyi şikayətlərində əsas fiqur kimi məhz Akif Çovdarovun adını qeyd ediblər. Bir neçə gün öncə A.Çovdarovun oğlu da Milli Məclisdəki işindən çıxarılıb.

**Çovdarovun işçisinin müəmmalı ölümü niyə araşdırılmayıb?**

A.Çovdarovun əməlləri haqda MTN-də “təmizləmə”lər başlanmazdan illər öncə də mətbuatda yazılar dərc olunub. Onun adı “Monitor” jurnalının baş redaktoru Elmar Hüseynovun qətlinin təşkilatçılığında, jurnalist Aqil Xəlilə qarşı təşkil olunmuş təxribatlarda hallanıb.

Redaksiyamıza daxil olan məlumatda A.Çovdarovun öz işçilərinə qarşı da həddən ziyadə əzazil olduğu, onlardan aylıq haqq toplamağı tələb etdiyi bildirilir. Məlumata görə bu ilin aprelində Nərimanov rayonu, Həsənoğlu küçəsi 16 saylı binanın 7-ci mərtəbəsindən özünü ataraq intihar edən 1975-ci il təvəllüdlü Azər Namiq oğlu Əliyev A.Çovdarovun işçisi olub. MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsində baş əməliyyat müvəkkili olan A.Əliyev intihar etməzdən əvvəl A.Çovdarovun qəbuluna çağırıldığı haqda da məlumat var.



Polkovnik-leytenant rütbəsi daşıyan Azər Əliyevin ölümü ilə bağlı Nərimanov Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanıb. Xüsusi xidmət zabitinin ölüm işi az sonra “cinayət tərkibi müəyyən olunmadı” qeydi ilə xitam olunub.

Nədənsə Milli Təhlükəsizlik Nazirliyində çalışan cavan bir zabitin intihar etməsinin səbəbi aydınlaşdırılmayıb. A.Əliyevin ağır xəstəliyi olmayıb, ailə vəziyyəti normal olub, iş yerindən aldığı məvacib ona orta səviyyədən bir qədər yuxarı yaşamağa imkan verib. Belə bir vəziyyətdə MTN zabitinin intihar etməsi qəribə deyilmi?

**Azər Əliyevin durumu, düşdüyü və ya üzləşdiyi hansı situasiya onu belə bir yola əl atmağa sövq edib?**

Əgər MTN rəhbərliyi, konkret olaraq A.Əliyevin birbaşa rəisi A.Çovdarov işçisinin intiharının səbəbi ilə maraqlansaydı, hazırda baş əməliyyat müvəkkilinin intihar səbəbi ortada idi. Necə ola bilər ki, baş əməliyyat müvəkkili intihar etsin, amma onun ölüm səbəbi bilinməsin?!

**MTN əməkdaşını yaşadığı evin eyvanından aşağı atıb öldürə bilərdilərmi?**

Bununla A.Əliyevin intihar görüntüsü yaradılar, əsl cinayət intiharın kölgəsində qala bilərdimi? Məsələn, hazırda MTN-də saxlanılan məşhur qanqster Hacı Məmmədov belə “bədbəxt hadisə”ləri təşkil etdiyini məhkəməsində etiraf etmişdi. Boris Xoridoviç Ayyubov, Ukuşov Ruslan Xaydarbekoviç və Dilbər Məhəmməd qızı Novruzovanı öldürülmələri epizodu üzrə ifadə verərkən bildirmişdi ki, onları üzərinə yumşaq material dolanmış armatur parçası ilə döyərək öldürüb. Bundan sonra isə hər üçünü Boris Ayyubovun “Linkoln” markalı İ 4601 Çİ dövlət nömrə nişanlı maşınına - Boris Ayyubovu sükan arxasına, Ruslan Ukuşevi onun yanındakı oturacağa, Dilbər Novruzovanın meyitini isə salonun arxa otaracağına yerləşdirib “Qurd qapısı”nın yuxarı hissəsindən üzü aşağı dərəyə buraxıb. Bununla da H.Məmmədov avtoqəza görüntüsü yarada bilmişdi.

**MTN zabiti komitə sədrinin sifarişi ilə intihar həddinə çatdırılıb?**

1 il əvvəl intihar etmiş Milli Təhlükəsizlik Nazirliyinin polkovnik rütbəsi daşıyan digər zabiti Malik Mustafayevin qardaşı Mətləb Mustafayev sensasion video yayıb. “Bizim Yol” qəzetinə təqdim etdiyi videomüraciətində Mətləb Mustafayev Əmlak Məsələləri Üzrə Dövlət Komitəsinin sabiq işçisi olduğunu, komitədən qanunsuz işdən azad edildiyinə görə məhkəməyə üz tutduğunu və bundan sonra MTN əməkdaşları tərəfindən qanunsuz həbsə məruz qaldığını deyir. Ən ilginc iddia isə MTN-nin “qara maskalı”larının komitə sədri Kərəm Həsənovun sifarişiylə onu həbs etməsi, MTN-də aparılan danışıqlar, bacısının həyatinə MTN-çilərin basqın etməsindən sonra qardaşının canına qəsd etməsidir. Şikayətçi iddia edir ki, MTN-də zabit olan qardaşı nazir Eldar Mahmudovun və digər vəzifəlilərin qəbulundan çıxdıqdan sonra evində intihar edib.

31 ilin MTN zabitinin özünü öldürməsinə qədər, qardaşının həbsinin gizlinləri də, bu gün MTN-də baş verənlərin fonunda aktuallığını qoruyur. Ən diqqətçəkən məqamlardan biri də hər 2 polkovnikin ölüm işlərinin “cinayət tərkibi olmadığı” qeydi ilə xitam olunmasıdır.

**Azər Əliyevin ölümündə belə bir ssenari ola bilərdimi?**

MTN rəhbərliyinin 40 yaşlı Azər Əliyevin intiharının açılmasına maraq göstərməməsi də xüsusi maraq doğurur.

Təəssüf ki, Nərimanov Rayon Prokurorluğunda polkovnik-leytenant rütbəli MTN zabiti Azər Əliyevin ölümünə sıradan bir intihar olayı kimi yanaşıb ölüm faktına görə başladılan cinayət işinə xitam verməklə bir kənara qoyublar.

5 ay fərqlə MTN-in 2 polkovniki intihar edir və hər 2 intihar işi eyni nəticə ilə arxivə atılır. Bu, təsadüfidir?

**MTN-in Xətai rayon Şöbəsinin rəisi işdən qovuldu**

Milli Təhlükəsizlik Nazirliyinin(MTN) Xətai Rayon Şöbəsinin rəisi Rafiq Hümbətov işdən çıxarılıb. R.Hümbətov Akif Çovdarovun bacısının kürəkənidir. 1972-ci il təvəllüdlü Rafiq Hümbətov A.Çovdarovun himayəsi altında tez bir zamanda MTN-də irəli çəkilənlərdəndir. 2010-cu ildə MTN-in Astara şöbəsinə rəis təyin olunan R.Hümbətov 2015-ci ilin fevralında qurumun Xətai rayon şöbəsinə rəis təyin olunub. Deyilənə görə, onu MTN-ə şöbə rəisi aparmaq istəyirmişlər.

Qaynağımız deyir ki, A.Çovdarova güvənən R.Hümbətov özünü tutduğu posta uyğun aparmayıb, bir çox qanunsuzluqlara imza atıb. Onun “MTN işi” üzrə istintaqa cəlb edilməsi haqda da məlumat var.

Aldığımız digər məlumatda deyilir ki, MTN-dəki “təmizləmə”lər A.Çovdarovun 1-ci müavini Qorxmaz Hüseynova da çatıb. Vaxtilə MTN-in nəzdindəki Xüsusi İdarədə çalışmış Q.Hüseynov sonradan İdman Akademiyasına prorektor təyin olunub. Namiq Abbasov milli təhlükəsizlik naziri olarkən Q.Hüseynov geri dönmək istəsə də, N.Abbasov onun uyğun kadr olmamasını əsas gətirərək buna imkan verməyib. Eldar Mahmudov nazir təyin olunandan sonra isə MTN-in qapıları Q.Hüseynovun üzünə açılıb. Sabiq nazirlə qohumluq əlaqələri sayəsində o, böyük bir idarənin rəis müavini postuna təyinat alıb. Eldar Mahmudovun əsas kadrlarından olan A.Çovdarov MTN-dəki yığımların başında dayanan əsas 2-3 şəxsdən biri olub. Q.Hüseynov onun 1-ci müavini olmaqla yığımlarda iştirak edib.

A.Çovdarovun MTN-də peşəkar kadrların qənimi kimi ad çıxarması haqda da bilgilər var. O, istədiyi şəxsi MTN-də işə götürə və ya əksinə, gözünə xoş görünməyən şəxsi işdən çıxarmaq səlahiyyətində olub. Qeyd edək ki, bir qədər əvvəl A.Çovdarovun bacısının kürəkəni R.Hümbətovun əməllərindən şikayətçi olan həmkarlarından biri qafqazinfo-ya danışmışdı. Demişdi ki, A.Çovdarov onu gözlənilmədən Astaraya MTN-nin rəisi təyin etdirib.

Həmin yazıdan sitat: “Həmin vaxt mən Astarada Rafiq Hümbətovla işləyirdim. Bu adamın ayıq günü olmurdu. Demək olar ki, hər gün içirdi. Astaranın Kələdəhnə kəndində ”Ceyhun" restoranı vardı. Bura faktiki olaraq əxlaqsızlıq yuvası kimi fəaliyyət göstərirdi. Rafiqin günü i?də yox, həmin restoranda keçirdi. Bir dəfə içkili şəkildə idarə etdiyi xidməti avtomobillə də inək vurmuşdu. Onun əməlləri o qədər narahatlıq yaratmışdı ki, həmin vaxt Astara icra başçısı olan Mahir Quliyev iclas keçirdi və bizim rəisə xəbərdarlıq etdi. Lakin heç nə onun vecinə deyildi. Həmin vaxt onun rütbəsi polkovnik-leytenant idi".

**Çovdarovun “vuran əlləri”**

“Yeni Müsavat”ın ötən saylarından birində yoxlamaların A.Çovdarovun idarəsinə çatdığı haqda yazmışdıq.

Xəbər verdiyimiz kimi, idarədə oktyabrın 29-da başlanılan yoxlamaların nəticəsi olaraq A.Çovdarova tabe olan 3 şöbə rəisi Səlim Məmmədov, Akif Əliyev və Rəsul Rəsulov vəzifələrindən uzaqlaşdırılıblar. Bu şəxslər A.Çovdarovun “vuran əlləri” hesab olunurdu.

**S.Məmmədov A.Çovdarovun himayəsi altında narkotik və insan alveri işlərində pul yığmaqla ad çıxarıb, R.Rəsulov haqq qoyan olub, A.Əliyev əvvəllər Çovdarovun köməkçisi olub, sonradan isə o da digər şöbələrin rəisləri kimi var-dövlət toplamaqla məşğul olmağa başlayıb.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# Sahibkarları Vergilər Nazirliyindən necə xilas etmək olar?

## Natiq Cəfərli: "Vergilər Nazirliyi illik planı doldurmaq üçün sahibkarları sıxışdırır və kəsiri örtməyə çalışır"

**Ölkədə sahibkarlara qarşı vergi orqanları tərəfindən təzyiqlərin olunması, müxtəlif qurumların biznesmenləri sıxışdırması artıq uzun müddətdir ki, mətbuatın gündəmindən düşmür. Problem o dərəcədə aktuallıq kəsb edir ki, ölkə başçısı da keçirdiyi son müşavirədə bu məsələyə toxunaraq, sahibkarlara qarşı edilən təzyiqlərin yolverilməz olduğunu vurğulamışdı: "Yoxlayan gəlir, nəyi yoxlayır, nəyi yoxlamır, ancaq nəticə etibarilə öz payını alır, çıxıb gedir. Budur reallıq... Bu, heç kim üçün sirr deyil. Buna da son qoyulmalıdır. Ümumiyyətlə, biz bu yoxlamaların sayını kəskin şəkildə aşağı salmalıyıq. Vergi və gömrük orqanları da şəffaf və səmərəli işləməlidir. Bununla bərabər, sahibkarlar qarşısında əsassız tələblər qoyulmamalıdır. Yəni başqa sözlə, onlardan rüşvət, heç bir haqq tələb edilməməlidir".**

Təəssüf ki, nə mətbuatın tənqidləri, nə də ölkə başçısının iradları problemin tamamilə aradan qalxmasına gətirib çıxatmadı. Hələ də vergi müfəttişləri, rayon icra başçıları, hüquq-mühafizə orqanlarının rəhbərləri müxtəlif yollarla sahibkarları sıxışdırmaqda davam edirlər.

Musavat.com bu məsələnin aktuallığını nəzərə alaraq, yenidən problemi gündəmə gətirib. Vergilər Nazirliyinin sahibkaralara qarşı yoxlamalarının azaldılmasını və biznes sektorunun rahat nəfəs almasını təmin etmək üçün hansı addımlar atılmalıdır?

Bu sualı cavablandıran **iqtisadçı-ekspert Natiq Cəfərli** bildirib ki, bunun üçün Vergilər Nazirliyinin səlahiyyətləri azaldılmalıdır: "Prezidentin istiqamət verdiyi məsələlərin həlli üçün tək bir çıxış kifayət etmir. Vergilər Nazirliyinin fəaliyyətində, vergi qanunvericiliyində dəyişiklik etmək lazımdır ki, ümumiyyətlə, nazirliyin hansı hallarda müdaxilə etməyə ixtiyarı var, necə yoxlama aparılmalıdır. Bütün bunlar qanunvericilikdə iş adamlarının başa düşəcəyi dildə öz əksini tapmalıdır ki, sonradan bu məsələdə dolaşıqlığlığa yol verilməsin. Bundan əlavə, Vergilər Nazirliyinin özünün də "planı" var. Məsələn, bu il təxminən 8 milyard manata yaxın Vergilər Nazirliyinin xətti ilə pul yığılmalıdır. Neftin qiymətinin bu ilki büdcədə 90 dollardan götürüldüyünü nəzərə alsaq, ən böyük vergi ödəyiciləri neft şirkətləri olan BP və ARDNŞ idi. Onların ödəmələrində ciddi azalma olub. Çünki büdcə planlaşdırılarkən neftin qiyməti 90 dollardan hesablanmışdı və vergilər də həmin gəlirlər üzərindən hesablanmışdı. Neftin ucuzlaşması hər iki qurumdan vergi ödəmələrini azaldıb. Təkcə SOCAR-ın vergi ödəmələri yarım milyard dollara yaxın azalıb. Qoyulan planı doldurmaq üçün Vergilər Nazirliyi başqa sərt tədbirlərə əl atmalı olur. Bu səbəbdən biznesmenlərin üzərinə daha çox təzyiqlər edilir ki, qarşıya qoyulan plan yerinə yetirilsin".

**Iqtisadçı ekspert vergi qanunvericiliyində dəyişikliklər edilməsinin vacibliyini də vurğuladı.**

Sahibkarların hüquqlarının məhkəmələrdə qorunmasına gəlincə, N.Cəfərli Vergilər Nazirliyinin əlində ciddi hüquqi rıçaqların olduğunu və qanunverici baza dəyişmədikcə, hüquqi mübarizənin mümkün olmayacağını bildirdi: "Əslində, sahibkarlar üçün "qaynat xətt" var. Onlar vergi basqılarından həmin "qaynar xətt"ə, eləcə də Korrupsiyaya qarşı Mübarizə İdarəsinə müraciət edə bilərlər. Son addım olaraq, məhkəməyə də müraciət edə bilərlər. Lakin Vergilər Nazirliyinin apardığı hər bir yoxlamanı əsaslandırması üçün kifayət qədər qanunverici bazası var. Əgər qanunsuz yoxlama olsa belə, onu əsaslandırmaq üçün əllərində kifayət qədər əsas var. Növbədənkənar yoxlama olarsa, bunun üçün də müvafiq qanun var. Vergilər Nazirlyini yoxlamalarının qarşısını hüquqi yolla almaq mümkün deyil. Bunun üçün həmin qanuni əsasları minimuma endirmək lazımdır. Ona görə də mən israrla deyirəm ki, qanunvericilikdə dəyişiklik olunmalıdır və Vergilər Nazirliyinin müdaxilə etmək səlahiyyətləri məhdudlaşdırılmalıdır. Hətta sahibkar harasa şikayət etsə belə, nazirlik qanunvericilik bazasına istinad edərək, həmin yoxlamanın qanunauyğun aparıldığnı sübut edə bilər. Məhkəməyə verilsə belə, məhkəmə qərarında Vergilər Nazirliyi tərəf kimi çıxış edərkən, qanuni əsaslarla haqlı mövqedə ola bilər".

❑ Nərgiz LİFTİYEVA

**"Prezidentin sahibkarlara arxa olmasını bir daha bəyan etməsi məni bir sahibkar qadın kimi ona müraciət etməyə, üzləşdiyim haqsızlığı mətbuat vasitəsi ilə ona çatdırmağa sövq etdi". Redaksiyamıza müraciət edən Venera Rüstəmova belə deyir. O, 2011-ci il, iyunun 8-də Nəsimi rayonunda odlu silahla qətlə yetirilən iş adamı, Gəncə şəhər sakini Rövşən Rüstəmovun həyat yoldaşıdır. V.Rüstəmova deyir ki, həyat yoldaşının qətlindən sonra onun biznes münasibətlərindən yaranan öhdəlikləri yerinə yetirməli olub. Mərhum həyat yoldaşının biznesini idarə etməklə 2 övladını özü saxlamağa başlayıb.**

# Qətlə yetirilən iş adamının xanımı prezidentdən kömək istəyir



**V.Rüstəmovanın sözlərinə görə, Gəncə Şəhər İcra Hakimiyyətinin və Gəncə şəhər Nizami Rayon İcra Hakimiyyətinin başçıları adına qanuni çıxarışı olan 1 hektar torpaq sahəsini ayrı-ayrı vətəndaşlara paylayıblar:** "Rövşən iş adamı idi, tikinti ilə məşğul olurdu. 4 il əvvəl deputatlığa keçmiş namizəd Nadir Orucov tərəfindən qətlə yetirildi. Nadirin həyat yoldaşıma külli miqdarda borcu var idi. Başımız yasa qarışmışdı. Gəncədə yoldaşımın obyektləri, mənim adıma isə 1 hektar torpaq sahəsi var idi. Mənə zəng vurub dedilər ki, Gəncədəki torpaqlarınızı hərraca çıxarıb dədə malı kimi satırlar. Gəncəyə gedəndə mənə məxsus torpaq sahəsinin tabaşirlə işarələndiyini gördüm. Gəncə şəhəri Nizami rayonunun o vaxtkı icra başçısı Məharət Mustafayevin (2011-ci ilin iyun ayından 2014-cü ilin sentyabr ayınadək Nizami RİH başçısı vəzifəsində çalışıb) və Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyevin də qəbulunda oldum. Torpağımın məndən xəbərsiz satılmasının səbəbini öyrənmək istədim. Dedim ki, həyat yoldaşım rəhmətə gedib, əlimdə xəstə uşağım var, dul qadının çörəyi ilə oynamaq yaraşmaz.

Elmar Vəliyev cavabında dedi ki, torpaq sənindir, sənin torpağını heç kim sata bilməz, o torpağı sənə pay verdim. Onu da deyim ki, həyat yoldaşım həmin torpağı almağa 650 min manat pul vermişdi və əlimizdə çıxarış da var".

**Venera Rüstəmova:** "Elmar Vəliyev mənə bildirdi ki, o torpağı sənin əlindən heç kim ala bilməz, amma..."

**Sonradan Gəncə şəhər rəhbərliyi tərəfindən aldadıldığını deyən Venera Rüstəmova məhkəməyə müraciət edib.** O, Gəncə İnzibati-İqtisad Məhkəməsində mülkiyyətində olan torpaq sahəsindəki tikintinin dayandırılması, torpağın əvvəlki vəziyyətinə gətirilməsi və ona dəymiş ziyanın ödənilməsi ilə bağlı iddia qaldırıb: "Bir müddətdən sonra gördüm ki, bizim torpağımızda artıq evlər tikilib. Hətta Gəncə Şəhər İcra Hakimiyyətindən onlara sərəncam da verilib. Bunu öyrənəndən sonra təkrar Elmar Vəliyevin qəbuluna getdim, amma bu dəfə məni qəbul etmədi. Mən də Gəncə şəhər Nizami Rayon İcra Hakimiyyəti ilə bağlı məhkəməyə müraciət etdim. Hər dəfə məhkəmədə icra hakimiyyətinin nümayəndələrindən vətəndaşlara verilən sərəncamların məhkəməyə təqdim olunması tələb edilsə də heç bir nəticəsi olmadı. Məhkəmələr mənim xeyrimə qərar çıxardı. Amma 3 ilə yaxındır məni süründürürlər".



**V.Rüstəmova deyir ki, cavabdeh qismində məhkəmədə iştirak edən Gəncə şəhər Nizami RİH nümayəndəsi ona məxsus torpağı satmadıqlarını, heç kimə sərəncam vermədiklərini bildirib:** "Amma biz öyrəndik ki, 15 nəfərə yaxın adama sərəncam verilib. Həmin adamlar özləri bizə deyib ki, torpağı icra hakimiyyətindən almışıq, pulu da onlara vermişik. Gəncə şəhər Nizami RİH tərəfindən verilən sərəncamlardan ikisini əldə etmişik, bir nüsxəsi bizdədir".

**Məhkəmə V.Rüstəmovanın iddiasını təmin edib. Gəncə İnzibati-İqtisad Məhkəməsinin 13 avqust, 2012-ci il tarixli qərarı ilə V.Rüstəmovanın mülkiyyətində olan 1 hektar torpaq sahəsinə həbs qoyulub, həmin sahədə hər hansı tikinti işlərinin aparılması cavabdehə və digər şəxslərə qadağan edilib.**

**V.Rüstəmova isə icra hakimiyyətinin məhkəmənin qərarına məhəl qoymadığını deyir:** "Belə görünür ki, Gəncədə qanunlar işləmir. Ona görə də halal mülkümə, "kupça"lı torpağıma kənardan baxa-baxa qalmışam. O vaxt rəhmətlik həyat yoldaşımın Rusiyadan gələn dostları həmin torpağın hamısını almaq istəyirdilər. Mən də satmaq istəyirdim, amma qoymadılar, bələdiyyə sədrini, icra hakimiyyətinin nümayəndələrini, polisi tökdülər. Öz torpağımı satmağa mənə imkan vermədilər. Bir hektar torpağımı zəbt ediblər, məni yiyəsiz görüblər. Pozulmuş hüquqlarımın bərpası üçün Gəncə İnzibati-İqtisad Məhkəməsinə müraciət etdim. Məhkəmənin Gəncə şəhəri Nizami RİH-ə torpaq sahəmin verildiyi adamların siyahısının və bu barədə verilmiş sərəncamların surətlərinin tələb edilməsi haqda sorğularına məhəl qoyulmadı. Təəccüblüsü odur ki, eyni məzmunlu sorğulara Nizami rayonuna yeni təyin olunmuş icra başçısı Nizami Hacıyev də cavab vermir. Məqsədləri odur ki, özbaşınalıqlarının üstü açılmasın. Dövlət orqanları rəhbərlərinin məhkəməyə bu hörmətsizliyinə nə ad vermək olar? Mənim konstitusiya ilə qorunan mülkiyyət hüquqlarım icra hakimiyyətləri tərəfindən niyə tapdanır və onların haqqında heç bir cəza tədbiri görülmür?"

**"Mənim konstitusiya ilə qorunan mülkiyyət hüquqlarım icra hakimiyyətləri tərəfindən niyə tapdanır?"**

**Şikayətçi deyir ki, Ali Məhkəmə məhkəmənin son qərarını Gəncə İnzibati-İqtisad Məhkəməsinə geri göndərib, hələ də işə baxılır:** "Hazırda iş yenidən Gəncə İnzibati-İqtisad Məhkəməsindədir. Nizaminin icra başçısı isə inkar edir ki, biz o torpaqları satmamışıq. İki ildir məhkəmə icra hakimiyyətinə sorğu göndərir ki, sərəncamları üzə çıxarın. Amma məhkəməni də saya salmırlar. Mənim torpağımı satmışdılar, heç olmasa pulumu verəydilər".

**Aidiyyəti orqanlara dəfələrlə məktub göndərdiyini, amma heç bir nəticəsinin olmadığını deyən V.Rüstəmova son ümidinin dövlət başçısına müraciət ünvanlamaq olduğunu bildirir:** "Cənab prezident! Sizin çıxışlarınızı dəfələrlə izləmişəm. Hər bir dövlət məmurunun xalqa xidmət etməli olduğunu deyirsiniz. Onların korrupsiyadan uzaq olmasını, heç bir vətəndaşı incitməməsini tələb edirsiniz. Sizin bu tələb və tövsiyələriniz xalqın ürəyincədir. Bütün xalq bu məsələdə sizinlə həmfikirdir. Amma təəssüf ki, yerlərdəki bəzi dövlət məmurları sizin göstərişlərinizi icra etmir. Xahiş edirəm, mənə kömək edəsiniz".

Sahibkar qadın deyir ki, söylədikləri ilə bağlı ən müxtəlif dövlət orqanlarına müraciətləri də nəticə verməyib. Mətbuatda olayla bağlı yer alan yazılara, səslənən iddialara Gəncə şəhər Nizami Rayon İcra Hakimiyyəti reaksiya verməyib. V.Rüstəmova prezidentə müraciətindən sonra torpağının özünə qaytarılacağına ümidli olduğunu gizlətməyib.

**Yazıda adları hallanan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 246 (6274) 5 noyabr 2015




# "Azadlıq-2015" seçkinin nəticələrini tanımır

## Blokun fəaliyyətinə xitam verilməsi və xalq hərəkatı yaradılaraq etiraz aksiyalarının keçirilməsi təklif edilir

**Noyabrın 4-də "Azadlıq-2015" seçki bloku parlament seçkilərinin nəticələri ilə bağlı mətbuat konfransı keçirib. Musavat.com-un məlumatına görə, tədbirdə blokun təsisçiləri olan partiyaların rəhbərləri iştirak ediblər. KXCP sədri Mirmahmud Mirəlioğlu bildirib ki, xarici və daxili faktorları nəzərə alaraq, bu seçkidə iştirak ediblər: "Bizim üçün dövlətçilik əsasdır".**




**"Azadlıq-2015" seçki blokunun seçki qərargahının rəhbəri Bəybala Əbil** seçki ilə bağlı qurumun rəyini açıqlayıb: "Blok 72 namizəd ürəli sürüb. Onlardan 19-u qeydə alınıb. Bir nəfər də məhkəmə vasitəsi ilə qeydə alınıb. Seçki prosesində çox sayda qanunsuzluqlar baş verdi. Namizədlərə, qohumlarına təzyiqlər oldu, buna baxmayaraq, namizədlərimiz seçkidə iştirakla bağlı cəhd göstərdilər. Blokun namizədi qeydə alınmayan 11 dairədən şikayəti oldu, biri qeydə alındı. Görünən odur ki, hakimiyyət demokratiyadan kənar, saxtakarlığın olduğu seçkinin keçirilməsinə cəhd göstərdi və daha kəskin şəkildə bu işi həyata keçirdi. Namizədlərin faktiki olaraq təşviqat apamaq imkanları yoxdur. Elə bir şərait yaradıblar ki, seçici ilə görüşməyə imkan vermirlər. Ancaq namizədlərimiz mübarizələrini apardılar, bir daha göstərdilər ki, Azərbaycanda seçki deyilən bir şey yoxdur. Seçki günü məntəqələr karbonlaşdırılmış protokolları kənarda yazdılar. Saxtakarlıq üçün çox mükəmməl bir mexanizm hazırlanmışdı. Namizədlərə qarşı, saxtakarlıq üçün, seçiciyə təzyiq üçün mükəmməl mexanizm hazırlanmışdı. Ancaq bununla belə, seçkidə iştirak çox vacib idi. Ən azı, ölkədəki vəziyyəti göstərdi. Bu barışıq addımı hakimiyyət tərəfindən normal qarşılanmadı".

**AXP sədri Pənah Hüseyn** də seçki zamanı baş verən total qanunsuzluqların ölkəboyu davam etdiyini vurğulayıb. "63 saylı dairədə mən seçkini udmuşam, nəticələr saxtalaşdırılıb. Biz artıq şikayətimizi vermişik, təkrar səsvermə keçirilməsini tələb edirik. Bizim 200-ə yaxın müşahidəçimiz seçkini izləyib, 120-dən çox aktımız var, əlimizdə səsyazıları, videolar var. Səslər yenidən sayılarsa, hesab edirəm ki, seçkinin nəticələri aydın görünəcək. Seçki mücadiləmiz davam edir və etməlidir. Çox ağır bir şəraitdə də olsa, müəyyən iş təşkil etmək olar. Bu seçki Azərbaycan hökuməti üçün növbəti şansın buraxılması oldu. Milli dialoqu inkişaf etməsi, ictimai rəydə möhkəmlənməsi üçün növbəti şans buaxıldı. Bu, sonuncu şans deyil. Bizim üçün deputat olmaq, ya olmamaq önəmli deyildi. Önəmli olan bu seçkilərdən, prosesdən Azərbaycan dövləti istifadə edə bilər. "Azadlıq-2015" keçən ildən apardığı kursu davam etdirsin, heç nəyə baxmayaraq. Bu gün mümkün olmayan bir ay, beş ay sonra mümkün ola bilər. Mən əminəm ki, Azərbaycan iqtidarındakı bir sıra şəxslər başa düşmürsə vəziyyəti, vəziyyət onralı başa salacaq. Ən yaxın illərdə Azərbaycanda istədiyimiz dəyişiklik olacaq".

**VİP sədri Əli Əliyev** isə deyib ki, hələ seçki mübarizəsi bitmiş sayılmamalıdır: "Bəzi dairələrdə mübarizə gedir. Əllərində fakt və dəlil olan namizədlər hüquq müstəvisində mübarizəni davam etdirməlidir". O, namizəd olduğu 15 saylı dairədə baş verənlərlə bağlı danışıb və orada seçilən namizədlə bağlı digər 5 namizədin birgə şikayətləri olduğunu vurğulayıb: "Biz ölkəni xarabazara çevirənlərdən fərqli olaraq, təkamül yolu ilə dəyişiklik istəyənlər olaraq mübarizəmizi davam etdirməliyik. Biz bu hakimiyyəti mütləq islahatlara məcbur etməliyik".

**BAP sədri Elşad Musayev** isə bildirib ki, blok seçkiyə getdikləri ilk gündən ağır zərbə alıb: "Blokun təmsilçisi olan partiya sədrlərindən bir neçəsi ümumiyyətlə seçki prosesindən kənarda qaldılar. Sonrakı mərhələdə də digərləri saxtakarlıq qurbanı oldular. Məsələn, 9 saylı dairəsə seçkini mən uddum, ancaq səslərim saxtalaşdırıldı. Biz ölkədə islahat istəyirik. Dinc yolla hakimiyyətin dəyişməsini istəyirik. Ölkə dəyişəcək. Biz seçkinin nəticələrini tanımırıq".

**"Azadlıq" Partiyasının sədri Əhməd Oruc** isə qeyd edib ki, qeyri-əxlaqi bir prosesə qatılıblar: "Demokratiya yüksək səviyyəli cəmiyyətlərdə mümkün ola bilər. Qarnı ac insanlardan demokratik dəyərlərə hörmət gözləmək doğru deyil. Bundan sonrakı danışıqlara gəldikdə isə, hakimiyyətlə biz səmimi şəkildə Azərbaycanın sabahını düşünərək dialoqu davam etdirə bilərik. Hakimiyyət nümayəndələri dialoq istəmədilər, aradan çıxdılar, qaçdılar gizləndilər".

**ALDP sədri Fuad Əliyev** isə deyib ki, "Azadlıq-2015" seçki bloku real güc idi, hakimiyyət də bunu görərək birinci mərhələdə onları parçalamaq istəyib: "Sədrlərin bir hissəsini hakimiyyət seçkiyə buraxmadı. Hakimiyyəti islahatlara məcbur etmək lazımdır".

**Namizədlərdən Xəzər Teyyublu da seçki zamanı baş verən saxtakalıqlardan danışıb və qeyd edib ki, dairələrdə ilk yeri tutan namizədlə ikinci arasında 20-25 min səs fərqi var:** "Bu da saxtakalığın böyüklüyünün bir sübutudur. Hesab edirəm ki, blokumuzun namizədləri qalib gəliblər. Amma hesab edirəm ki, bundan sonra blokun fəaliyyətinə xitam verilməli və xalq hərəkatı yaradılmalıdır. Təklif edirəm ki, "Azadlıq-2015" seçki bloku xalq hərəkatına çevrilsin və digər partiyalar, gənclər təşkilatları ilə bu istiqamətdə iş aparılsın. Yaxın 3-4 aya çox geniş xalq kütlələrinin birgə müqavimət gücünün ortaya qoyulmasını təklif edirəm. Təklifim müzakirə olunsun. Sübut olundu ki, seçki yolu düzgün yol deyil. Hamının hərəkat kimi təşkilatlanıb, ölkə boyu kütləvi aksiyalara başlaması lazımdır".

**Namizədlərdən Nisəxanım Vəliyeva da xalq hərəkatı ideyasını dəstəkləyib. Həmçinin mətbuat konfransında bildirilib ki, "Azadlıq-2015" blokunun seçkidən sonra qalıb-qalmaması hələ ki, müzakirə edilir. Blokun təsisçiləri parlament seçkilərinin nəticələrini tanımadıqlarını vurğulayıblar. "Belə parlamenti tanımırıq, seçkinin nəticələrini də tanımırıq, saxtakarlıq olub",- deyə Əhməd Oruc bildirib. "Parlament qeyri-legitimdir",- deyə Mirmahmud Mirəlioğlu vurğulayıb. "Hakimiyyətin bir qolu zorla zəbt olunub. Seçkidə total saxtakarlıq olub",- Elşad Musayev qeyd edib. Sədrlər hakimiyyətlə dialoq məsələsinin də blokda müzakirə edildiyini vurğulayıblar.**

❑ **Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**

---

# "YAP-a zidd addım atanlara güzəşt edilməyəcək"

## Siyavuş Novruzov: "Çünki onlar partiyanın siyasətinə qarşı zidd hərəkətlər edib"


Siyavuş Novruzov

**Yeni Azərbaycan Partiyasının (YAP) icra katibinin müavini Siyavuş Novruzov seçkiyə özbaşına qatılan partiya üzvləri ilə bağlı "Yeni Müsavat"a açıqlama verib. Partiya rəsmisi bu məsələdə heç kəsə güzəşt edilməyəcəyini deyib: "Seçkinin nəticələri barədə qərar rəsmiləşdikdən sonra partiyanın rəsmi namizədlərinə alternativ olan şəxslər barədə ciddi tədbir görüləcək.**

Bu barədə partiyanın rəhbər orqanı qərar verib və məsələ onun səlahiyyətindədir. Buna görə də kiməsə güzəştə gedilməsi barədə heç kim fərdi qaydada mövqe deyə bilməz. Çünki onlar partiyanın siyasətinə qarşı zidd hərəkətlər edib bu cür addım atıblar. Ümumilikdə 55 nəfər partiya qərarından kənar öz namizədliklərini irəli sürmüşdü. Lakin onların əksəriyyəti, bir neçə nəfəri çıxmaq şərti ilə namizədliklərini gerin götürdülər, yəni alternativlik yaratmadılar".


Nazim Məmmədov

Qeyd edək ki, hakim partiyanın üzvü olub onun rəsmi namizədlərinə alternativ olan namizədlərdən biri də **sabiq deputat Nazim Məmmədovdur**. Belə ki, o, YAP-ın üzvü olsa da 104 saylı Gədəbəy-Tovuz Seçki Dairəsindən namizədliyini bitərəf kimi irəli sürmüşdü.

"Yeni Müsavat"a açıqlamasında N.Məmmədov partiyadan kənarlaşdılması məsələsinə münasibət bildirmək istəmədi:

"Bu barədə fantaziyalara cavab verməyəcəm... Seçki mənim üçün bitmiş məsələdir. Mənim namizədliyim seçicilərin təşəbbüs qrupu tərəfindən irəli sürülmüşdü. Bakıda cəmi iki nəfər təşəbbüs qrupu tərəfindən irəli sürülmüşdü və onlardan biri mən idim".

Əlavə edək ki, 104 saylı Gədəbəy-Tovuz Seçki Dairəsindən namizədlərdən biri də **YAP siyasi şurasının üzvü Rafiq Məmmədhəsənov** idi. İlkin nəticələrə görə həmin dairənin yeni deputatı R.Məmmədhəsənov seçilib.


Elza Seyidcahan

Məlum olduğu kimi, bəstəkar-müğənni Elza Seyidcahan da YAP üzvü olduğu halda parlament seçkilərinə bitərəf şəxs kimi qatılmışdı və Dairə Seçki Komissiyası onu bitərəf kimi qeydiyyata almışdı. Müğənni "Yeni Müsavat"a açıqlamasında partiyadan uzaqlaşdırılması məsələsinə bu cür münasibət bildirib: "Mən həmişə YAP-ın sadiq əsgəri olmuşam, hətta partiyaya musiqi də bəstələmişəm...Partiyadan uzaqlaşdırılacağma gəldikdə isə, bu barədə danışmaq istəmirəm".

Xatırladaq ki, müğənni 54 saylı Şabran-Siyəzən Seçki Dairəsindən namizədliyini irəli sürərək YAP-ın rəsmi namizədi Tahir Süleymanovun alternativi olmuşdu. İlkin nəticələrə görə T.Süleymanov adı çəkilən dairənin yeni seçilmiş deputatıdır.

❑ **Xalidə GƏRAY**

YENİ MÜSAVAT
N 246 (6274) 5 noyabr 2015



# Prosesləri qabaqlamayaq

Zamin HACI
zaminhaci@gmail.com

**Bəzi vətəndaşlarımız görürsən tələsirlər, müəyyən prosesləri qabaqlamaq istəyirlər. Nəticədə həm özlərinə, həm ölkəmizdə aparılan kommunizm quruculuğu proseslərinə ziyan vururlar. Ata sözündə deyilən qaydaya əməl etmək lazımdır: "Bağban tələsər, armud vaxtında yetişər". Düzdür, sonra həmin yetişmiş armudun yaxşılarının hansısa ayıya qismət olmaq ehtimalı çox böyükdür, ancaq nə qəm, əsas prosesdə iştirak etməkdir. Cecəyini yeyərik, şükür edərik. Bu dünyada armud cecəyi yeyən hər kəsin o biri dünyada cənnət armudu yeməsi mütləqdir. Müqəddəs kitablarda yazılıbdır.**

Bax, tələsən yoldaşlardan bəziləri hazırda arzu edirlər ölkəmizdə gerçək parlament yaransın. Qanunverici orqan icra edici orqandan ayrı olsun. Müstəqil məhkəmə sistemi qayıraq. Ancaq soruşan lazımdır: "Nə ilə, Alış?". (Bu məşhur bir anekdotdan çıxarışdır. Həmin anekdotda Alış adlı qoca kişi şuluqluq salan qonşu uşaqlarını pis söyür, bu zaman qarısı kədərlə baxıb yazdığımız cümləni səsləndirir). Əgər sənin bütün bu sistemləri normal axını ilə təchiz edəcək kadrların yoxdursa, insan azadlıqlarına, fundamental liberal dəyərlərə münasibətdə bir çox müxalifətçilər iqtidardakılardan fərqlənmirsə, nəyi dəyişdirmək arzusundasan? Necə deyərlər, "gedib İsveçrədən xalq gətirməyəcəyik".

Dünən xəbər oxudum, dini komitənin müdiri Mübariz Qurbanlı falçılığın qadağan ediləcəyi haqda anons vermişdir. Mübariz müəllim də məncə çox tələsir, ehsan bozbaşını qadağan eləmək üzrə köklü islahatları tam bitirməmiş falçılara girişməsi düzgün deyildir. Bir də gördün falçılar cadu eləyib Mübariz müəllimin bəxtini bağladılar, onu Eldar Mahmudovun yanına göndərdilər. Hər yuvaya çöp uzatmaq olmaz. Üstəlik, falçılığı adiministrativ yolla necə qadağan eləmək olar? İnsan haqlarına ziddir. Mənim kefim istəyər, qoroskopa inanaram. Pulum çox olar, məzə üçün qonşu Güllübəyim xalaya 5 manat verərəm, deyərəm fala baxsın, görsün Dağlıq Qarabağ münaqişəsinin Paris prinsiplərinin Praqa danışıqlarının Ki Vest mərhələsinə uyğun həlli yolunda hansı işıq ucu görünür, kəhər atlarımız Novruzda Cıdır düzündə şıllaqlayacaqdırmı.

Minlərlə qadınlar, qızlar var, ümidlərini falçıya bağlayırlar, bu yolla ərə getmək istəyirlər. Yüzlərlə erkəklər müdir keçmək üçün dua yazdırırlar. Camaat universitetə qəbul yolunda iki istiqamətdə maya qoyur: repetitora və falçıya pul verirlər. İndi bunları zorla necə aradan götürəcəksən? Həm də bir şeyi qadağan eləmək çıxış yolu deyil. Alternativini, düzgün yolunu insanlara təqdim etməlisən. Bu varmı? Yoxdur. Falçılığın, ekstrasensliyin fırıldaq, dələduzluq olmasını təhsil yolu ilə, elmlə insanlara aşılamaq lazımdır. Təhsil sistemi, məktəblər cinayət yuvasıdır. Yapistlərin telekanalizasiyalarında hansısa elmi veriliş varmı? Elm nə kökə salınıb? Mələyin uçma sürətini hesablayan şarlatan-fiziklərin oylağına çeviriblər akademiyanı. Polis çavuşu elmlər doktorundan çox qazanan ölkədə falçılıq insanların yeganə işıq gələn nöqtəsidir. Bunu necə tıxaya bilərsən? Mümkün deyil.

Eyni zamanda, mən yapistlərin məntiqini də anlayıram. Azərbaycanda hər sahə inhisara alınıbsa, falçılıq niyə qıraqda qalsın? Onlar bizə xoşbəxt gələcək vəd edib cibimizə girirlər, evimizi yıxırlar, bəxtimizi bağlayırlar. Bu özü elə falçılığın, cadugərliyin, qara magiyanın bir növüdür. İradəsi zəifləri (oxu: uca millətimizi) tora salıb 22 ildir fırladırlar. Sən güclü olsan, ağıllı olsan hipnoz sənə nə edər?

"Speys" kanalında bir falçı aparıcı vardı, onu həbsə atdılar. İndi də ümumən peşəni qadağan etmək istəyirlər. Bir ara poçtalyonlar intihar edirdi. Dünən "Azərpoçt"un müdirini zindana salıblar. Deməli, proseslər aşağıdan yuxarıya, fərddən kütləviyə doğru gedir. Mane olmadan izləmək lazımdır. Şəxsən mən maraqla izləyirəm, qarışmaq fikrim yoxdur. Tamaşa zamanı başımı qatmaq üçün xeyli qarğıdalı da almışam. Hərdən qovururam, keçirəm ekran başına...

# MTN çetesi "vəhhabi qarmağı" ilə məmurları necə ovlayıb

**Milli Təhlükəsizlik Nazirliyində (MTN) məlum dəyişikliklərdən sonra bu qurumla bağlı xeyli faktlar üzə çıxdı. Məlum oldu ki, ayrı-ayrı sahibkarlar, vəzifəli şəxslər MTN çetesinin şantajına, təzyiqlərinə məruz qalıb. Reket üsulları ilə fəaliyyəti göstərən bir sıra təhlükəsizlik zabitlərinin əməlləri barədə mətbuatda son 15 gündə xeyli araşdırma yazılar dərc edilib.**



**Lakin son günlərdə hakimiyyətə yaxın mənbələrə istinadən verdiyimiz təhlildə də göstərildiyi kimi, bu çetə, öz mövqeyini möhkəmləndirmək məqsədilə, siyasi və dini müxalifət üzərindəki nəzarətini gücləndirməklə dövlət içində "dərin dövlət" yaratmağa cəhd göstərib, özünü əvəzolunmaz etmək, mövqelərini əbədiləşdirmək və bu mövqelərə təhlükə yaranarsa, dövləti belə təhdid etmək məqsədilə müxtəlif rıçaqlara əl atıb.**

Hökumət dairələrindəki qaynağımızın bildirdiyinə görə, bu yolda 2 mühüm vasitələrdən biri - siyasi müxalifət üzərində - tam nəzarəti ələ keçirmək o qədər də asan olmayıb, çünki bu sahədə başqa "ağırçəkili" oyunçular - istər PA, istərsə də iqtidara yaxın digər oliqarxlar da fəaliyyət göstəriblər. Məhz bu səbəbdən E.Mahmudov zaman-zaman həm Administrasiya, həm digər nüfuzlu oliqarxlarla münasibətlərində gərginlik dövrü yaşayıb. Lakin digər rıçaq - dini müxalifət və dini radikallar faktoru demək olar ki bütövlükdə MTN-nin nəzarətində olub. Bu sahəyə şəriksiz nəzarət çetenin əlində hakim elitanı daim təhdid edə biləcək, özünün isə əvəzolunmazlığını nümayiş etdirəcək unikal bir rıçaq rolunu oynayıb.

Bizə çatan məlumatlarda qeyd olunur ki, bu faktordan sadəcə "radikal islamçıların önündə iqtidarın yeganə sipəri bizik" tezisini yeritmək məqsədilə deyil, həm də MTN-nin ipə-sapa yatmayan məmurları cəzalandırmaq və ya biət etdirmək üçün də istifadə olunub. Əlbəttə ki bu kontingentlə iş zamanı təhlükəsizlik nazirliyindəki qruplaşma üzvləri ana marağını - tamahlarını da unutmayıblar.

Artıq mətbuatda MTN-in sabiq rəhbərliyinin gizli silahı - radikal vəhhabilərlə bağlantıları barədə məlumatlar geniş yer aldığından bu mövzu üzərində çox dayanmaq istəmirik. Sadəcə, keçən yazılarda birində qeyd etdiyimizi xatırladaq ki, MTN zabitlərinin vəhhabilərlə bağlı iş istiqamətlərindən biri də bu dini cərəyan üzvlərinə maliyyə yardımını göstərən şəxslərdən və ya onların yaxın qohumları olan iş adamı, həmçinin məmurlardan şantaj və hədə-qorxu yolu ilə böyük məbləğdə pul qoparmaq olmuşdur.

**Özəl qaynaqlarımızdan aldığımız şok sayıla biləcək bilgilərə görə, Eldar Mahmudov qruplaşmasının bu istiqamətdəki əməlləri barədə konkret faktlar üzərində artıq istintaq da işləyir.**

# Eldar Mahmudov Abutalıbovu oğluna görə ilişdiribmiş - sensasiya

## MTN-dəki qruplaşma İsrafil Abutalıbovun vəhhabi olmasından istifadə edərək BŞİH rəhbərini "yolub"; gömrük məmuru isə İŞİD-i maliyyələşdirmək ittihamı ilə şantaja məruz qalıb; hər ötən gün "MTN işi" barədə müdhiş məlumatlar alırıq...

**Mətbuatda əvvəllər yazıldığı kimi, Bakı ŞİH-in başçısı Hacıbala Abutalıbovun oğlu İsrafil Abutalıbov vəhhabidir.** Bu barədə o qədər çox yazılıb, çox danışılıb ki, hətta dinə heç bir aidiyyatı olmayanlar da bundan xəbərdardırlar. Məsələn, onun xarici ölkələrdən birində olarkən bu zəhərli cərəyana beyət etməsi, məhz bundan sonra bir çox anormallıqlara düçar olması, bu səbəbdən boşanması və sair haqda mətbuat xeyli materiallar dərc edib. Qaynağımızın bildirdiyinə görə, merin oğlu hətta Azərbaycandakı vəhhabilərin əsas sponsoru rolunu da oynayıbmış.

**Təbii ki, MTN də bunu bilirdi. Amma bilavasitə E.Mahmudovun göstərişi ilə nazirlikdə bu sahədə fəaliyyət göstərən xüsusi qrupun əməkdaşları sadəcə faktları toplamaqla kifayətlənməyiblər.** Belə ki, onlar H.Abutalıbovun oğlunu nəzarətdə saxlayıb, onun başıpozuq hoqqalarının, bəzən isə aşkar qanun pozuntularının qarşısını almağa nəinki cəhd göstərməyib, əksinə, öz adamlarını onun yaxın ətrafına daxil edərək bir qədər də radikallaşmasına imkan yaradıblar. Məhz kənardan yeridilmiş "öz adamlarının" təsiri ilə H.Abutalıbovun oğlunun daha radikal düşüncəli dindaşları ilə yaxınlığı, radikal təriqətə maliyyə yardımının göstərilməsi "təmin" edilib.

**Oğul Abutalıbov xirtdəyə qədər zibilə batandan sonra isə bütün faktlar əyani vəsaitlərin müşayiəti ilə ata Abutalıbovun masasının üzərinə qoyulub.** Bakı merinə iki variant təklif edilib: ya oğlu həbs edilir, özü isə biabır olur (tutduğu postdan məhrum olur); ya da ki... MTN şefinə biət edir. Sövdələşmənin detalları bəlli olmasa da onun nəticələrindən ikisi göz önündədir. Məhz bu əməliyyatdan sonra öncə Eldar Mahmudovun onun ortağı və qudası Beynəlxalq Bankın sədri Cahangir Hacıyevin şirkətləri paytaxtın müxtəlif yerlərində dəbdəbəli binalar ucaltdırıb. Özü də heç bir sənəd, icazə və yoxlama problemi ilə üzləşmədən.

**Bəs İsrafil Abutalıbov necə? MTN vədinə xilaf çıxmayıb. Merin oğluna ölkəni tərk etməyə imkan yaradılıb və o, Türkiyəyə üz tutub, bu gün də İstanbulda yaşamaqda və zaman-zaman Bakıya gələrək biznəslərinə və həmtəriqətçilərinə baş çəkir.** İsrafil Abutalıbov o qədər arxayınlaşıb ki, bu yaxınlarda mətbuatda keçən bir iddiaya görə, hətta yaxın olduğu radikal vəhhabi din xadimi Əlixan Musayevin ölkə başçısının təşəbbüsü ilə tikilmiş Heydər Əliyev məscidinin baş imamı təyin edilməsi sahəsində təşəbbüsdə bulunub.

Onu da əlavə edək ki MTN-nin şərləmə və şantaj əməliyyatına məruz qalmaq üçün məmur yaxılarının heç də İsrafil Abutalıbov kimi uzun saqqal və qısa şalvarlı olması şərt deyilmiş.

**Bizdə olan məlumata görə, bənzər əməliyyat gömrük sistemindəki digər yüksək çinli məmura qarşı da keçirilib.** Bu məmurun ailə üzvlərinin dindar olması, dini həyat tərzi sürmələri, hətta hicablı olması hökumət dairələrində sirr deyil. Lakin MTN-i maraqlandıran həmin şəxsin ölkəyə məşhur brendlərin ixracı, bu sahədə biznes şəbəkəyə malik olması və dini inancından dolayı xeyriyyə məqsədli, özü də açıq şəkildə pul xərcləməsi olub. Məhz bu amil də yekunda onun MTN-in diqqət mərkəzinə düşməsi ilə nəticələnib. Bu faktorların sintezi MTN-ə həmin iş adamını nə az nə çox İŞİD-i maliyyələşməkdə ittiham etməklə sonuclanıb.

**Təbii ki, iş adamının məhz bu fəaliyyətində milli təhlükəsizlik üçün təhdidlərin olub-olmamasını demək gülüncdür.** Ən azı ona görə gülüncdür ki həmin iş adamına qarşı hazırlanmış "dosye" hüquq- mühafizə orqanlarına deyil, məhz radikal cərəyana qoşulan şəxsin məmur qohumuna təqdim olunub. Məqsəd həmin məmurdan şantaj yolu ilə pul qoparmaq olub.

Bu sövdələşmənin detalları bəlli olmasa da, sonucları göz önündədir. "İŞİD-i maliyyələşdirmə" şantajından sonra E.Mahmudova məxsus bahalı maşınların, eksklüziv şərab məhsullarının və daha neçə malların ölkəyə "maneəsiz idxalına" elə həmin vaxtdan yaşıl işıq yandırılıb. MTN şefinin himayə etdiyi biznesmenlərə (o cümlədən, deyilənə görə, vəhhabilərlə şərik işlədilən nəhəng tikini materialları satış şirkətinə) böyük güzəştlər verilib, biznesin müəyyən sahələrində monopoliya qurulub.

**Gerçək təhlükə mənbəyi olan radikal dini cərəyanın ölkədaxili artımını maliyyələşdirən və Mahmudovun çətiri altında, hətta bəhsi keçən biznəslərdə onunla ortaq olan vəhhabilərin biznes şəbəkələrinə isə "gözün üstündə qaşın var" demək istəyənlərə qarşı preventiv tədbirlər keçirilib.** Məsələn, verdiyimiz xəbərdə Vergilər Nazirliyi vəhhabilərin biznes şəbəkəsinə qarşı yoxlamalar keçirmək istəyəndə, bu qurumun əməkdaşlarına, hətta rəhbərliyinə qarşı toplanan "kompromatlar" işə salınaraq proses dayandırılıb. Vergilər Nazirliyində bu sahəyə Eldar Mahmudovun adamı, "MTN işi"lə bağlı həbs edilmiş, nazirliyin Vergi Cinayətlərinin Təhqiqi Departamentinin rəisi, general Vidadi Məmmədov məsuliyyət daşıyıb. Təbii ki, bu işlərdə dini "təəssübkeşlikdən" çox, maddi maraqlar öndə olub.

**Təbii ki, sadalanan faktlar böyük bir prosesin - dini müxalifəti nəzarətdə saxlamaq adı ilə bu sferada törədilən özbaşınalıqların epizodik hallarıdır, necə deyərlər, aysberqin üstüdür. Lakin bunlar belə Mahmudov çetesi tərəfindən radikal cərəyanlarla mübarizə əvəzinə, onlardan məmurları ovlamaq üçün tələ, ya da şərləmək üçün çamur kimi istifadə etdiyinin bir nümunəsidir.**

❑ Musavat.com

# Avrasiya ilğımı - Bakı üçün tələ, yoxsa nicat?

## Qərblə Rusiya arasında seçim öncə dəyərlər arasında seçim olacaq; Azərbaycan "qırmızı xətt"lərə yaxınlaşıb...

**Rəsmi Bakı Qərblə Rusiya arasında ənənəvi balans siyasətini saxlamağa çalışır, hərçənd son vaxtlar "balans" xeyli dərəcədə şimal qonşumuzun xeyrinə pozulmuş kimi görünür. Bunun hansı səbəbdən baş verdiyi barədə vaxtaşırı təhlillər edilir. Bu günün sualı belədir ki, mövcud vəziyyət nə qədər və hara kimi sürə bilər?**

**Sualın cavabı şübhəsiz ki, Bakının hazırkı vəziyyətdə nə dərəcədə və hara qədər maraqlı olmasından asılı olacaq. Ancaq müşahidələr göstərir ki, Rusiyaya güclü reveranslar sırf onun öz istəyi ilə əlaqəli olsa da və ya Qərbə qarşı manevr məqsədi güdsə də, hakimiyyətin bütünlüklə Kremlin siyasi ağuşuna da hesablanmayıb.**

Ayrı sözlə, Bakı fərqindədir ki, Moskva ilə yalnız müəyyən bəlli məsafəyə, "qırmızı xətt" kimi yaxınlaşa bilər, ondan o tərəfə mütləq Azərbaycanın Ermənistanın gününə düşməsi, müstəqilliyi və suverenliyini böyük ölçüdə itirməsi gəlir.

Söz düşmüşkən, Rusiya ATƏT-in Minsk Qrupunun üç həmsədr dövlətindən yeganə birisidir ki, Azərbaycan onunla Qarabağ məsələsinin həlli naminə demək olar, bütün formatlarda və müstəvilərdə əməkdaşlıq edib, hətta öz suverenliyinin müvəqqəti məhdudlaşmasına belə razı olub, fəqət, heç bir nəticə hasil olmayıb.

Ötən əsrin 80-ci illərində Arkadi Volskinin başçılığı ilə yaradılmış və yalnız Moskvaya tabe olan Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsini yada salın. Guya bölgə birbaşa Kremlin protektoratına verilməklə konflikt yoluna qoyulacaqdı. Ancaq bu qurumun ermənipərəst fəaliyyəti ona gətirdi ki, separatçılar bir az da azğınlaşdılar və Qarabağı Azərbaycanın yurisdiksiyasından çıxarmaq üçün yeni imkanlar əldə elədilər. Rəsmi Bakı isə çətinliklə və gec də olsa, məcbur qalıb qurumun ləğvinə nail oldu.

Hələ o vaxt - Mixail Qorbaçovun dövründə gün kimi aydın idi ki, Rusiya münaqişənin ölkəmizin suverenliyi, ərazi bütövlüyü çərçivəsində həllində maraqlı deyil. "Völski eksperimenti" bu həqiqəti çılpaqlığı ilə ortaya qoydu.

**Ardınca gələn Boris Yeltsin (MDB) dönəmi eyni həqiqəti daşlaşdırdı. "Pulun pul vaxtında" Rusiyanın öz satelliti Ermənistana 1 milyard dollar dəyərində havayı silah-sursat verməsi bunun bariz sübutu, paralel olaraq isə Azərbaycana ciddi bir xəbərdarlıq mesajı idi ki, öz işini bilsin.**

KQB zabiti Vladimir Putinin dönəmi də eləcə. Təkcə bu faktı xatırlatmaq yetər ki, mərhum prezident Heydər Əliyevi özünün müəllimi sayan Putin hakimiyyətdə olduğu 15 il ərsində (4 il baş nazir olanda da Rusiyanı faktiki, Putin idarə edib) Qarabağ ixtilafının nizamlanması yönündə daşı daş üstə belə qoymadı. Halbuki, az qala uşaq da bilir ki, Moskvanın könlü istəsə, münaqişəni bircə həftədə yoluna qoyar - yetər ki, marionet Ermənistana azca göz ağartsın.

***

Bu faktları ona görə xatırlatdıq ki, bəzi sadəlövhlər "Azərbaycan Avrasiya İttifaqı-vədi vermir, o ki, ola Avrasiya Birliyini üzv olandan sonra.

Nəhayət, bu da bizə başqa bir ciddi siqnal, ibrət dərsidir ki, şimal qonşumuz MDB məkanında indiyədək nəinki heç bir etnik-ərazi konfliktini yoluna qoymayıb, üstəlik, Ukraynada yenilərini yaradıb...

***

Bu dərsləri deyəsən, qonşu gürcülər daha yaxşı əxz edib. Məsələn, ölkənin barışıq və vətəndaş bərabərliyi naziri yatları olmayıb, MDB-də isə əksinədir. Mən yalnızca gürcü-rus qarşıdurmasını nəzərdə tutmuram. Ukraynadakı qanlı hadisələri götürün. Həmçinin, müharibə vəziyyətində olan Azərbaycanla Ermənistan MDB-nin üzvləridir".

***

Gürcü nazirin söylədiklərində böyük və acı həqiqət var və Azərbaycana da aiddir. Bu da ondan ibarətdir ki, biz Avrasiya Birliyinə qoşulsaq da na girsə, rus sülhməramlıları ölkəmizə qaytarılsa, Azərbaycanda Rusiya hərbi bazası olsa, Qarabağ məsələsi dərhal xeyrimizə nizamlanar" ilğımına ciddi yanaşsınlar. Çünki Avrasiya Birliyi də SSRİ-nin mini-formatı kimi - bərabər hüquqlu dövlətlərin birliyi kimi yox, məhz Rusiyanın dominant olduğu qurum kimi nəzərdə tutulur. Onun bənzəri olan SSRİ tərkibində biz əgər acı Volski eksperimentini artıq görmüşüksə (o zaman da ərzimizdə Rusiya bazaları mövcud idi), təzədən bataqlığa girməyə dəyərmi?

**Lap Rusiya hansısa Qarabağ vədi verdi. Məgər onlardan bircəciyi indiyədək doğrulub? Rusiya heç qan-din qardaşı Ukraynaya verdiyi yazılı vədi tutmayıb - nüvə silahından imtinanın qarşılığında Ukraynanın ərazi bütövlüyünə təminat verən Budapeşt sənədindəki imzasına tüpürməklə, Krımı işğal eləməklə, Donbasda "yeni Qarabağ" yaratmaqla.**

Rusiya belə təhlükəli və siyasi etibarını itirmiş dövlətdir. Ötə yandan Moskva indi - Bakı ona bunca riskli şəkildə yaxınlaşdığı vaxtda da heç Qarabağ Paata Zakareişvili bildirib ki, Gürcüstan hətta Avropa Birliyi və NATO-ya inteqrasiya kursundan imtina eləsə belə, Rusiya Gürcüstanın ərazi bütövlüyünü bərpa etməyəcək, Abxaziya və Cənubi Osetiyanı onun tərkibinə qaytarmayacaq.

Sitat: "Belə fikir var ki, əgər biz NATO və AB-dən imtina eləsək, Rusiya ərazi bütövlüyümüzü bərpa edəcək. Belə şey istisnadır. Biz artıq Eduard Şevardnadze dönəmində həmin mövqedə olmuşuq. Şevardnadze müharibədən sonra təklif elədi ki, MDB-yə girək, o zaman Abxaziya və Cənubi Osetiya problemləri həllini tapacaq. Ancaq biz bunun tam əksini gördük".

**Nazir təbii ki, Abxaziya və Cənubi Osetiyanın "5 günlük müharibə" nəticəsində de-fakto Rusiyaya birləşdirilməsini də nəzərdə tutur. Odur ki, əlavə edir:** "Mənim üçün ilk növbədə dəyərlər önəm kəsb edir. NATO-ya üzv ölkələrin əksəriyyətində demokratik dəyərlərdir. Odur ki, bu yöndə hərəkət eləməliyik. NATO-nun heç bir ölkəsində alyans yaranandan sonra döyüş əməliyyatları olmayıb...

Moskva Dağlıq Qarabağı Azərbaycana qaytarmayacaq, uzağı, "yeni SSRİ"nin tərkibinə qaytaracaq. Bu yolu isə, təkrar edirik, bir dəfə keçmişik - böyük qurbanlar hesabına.

Odur ki, Azərbaycan Qarabağ probleminin həllini başqa, yeni dəyərlər sistemi və müstəvisində axtarmalı, təhlükəli "qırmızı xətlər"dən geri çəkilmək haqda düşünməlidir. Elə bir müstəvi ki, orada bütün hallarda ölkəmizin ərazi bütövlüyünə saygı göstərilsin.

Qardaş Türkiyənin də təmsil olunduğu NATO və Avropa təhlükəsizlik sistemi bütün tənqidlərə rəğmən, hər halda belə bir qarantı verə bilər. Yetər ki, Azərbaycan üzünü bir azca ümumbəşəri, demokratik dəyərlərə tutsun.

**Onu da unutmayaq ki, Avropa Parlamenti (AB-nin əsas qurumu), NATO Parlament Assambleyası və Avropa Şurası Parlament Assambleyası Rusiyadan fərqli olaraq, ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən, hətta Ermənistanı işğalçı adlandıran sənədlər qəbul ediblər...**

❑ Zahid SƏFƏROĞLU



# Sonuncu vaqona manyakları doldurmalı



Xalid KAZIMLI

**Paytaxtda, eləcə də ölkənin bütün şəhər və qəsəbələrində, kəndlərində minlərcə seksual manyak var, heç kəs danmasın. Bunlar, seksual manyaklığın açıq və gizli, yüngül və ağır formalarını daşıyanlar, ibtidai və geridönməz mərhələsini yaşayanlar hər addımbaşı qabağımıza çıxırlar. Hamımızın.**

Küçədə bir gözəl qız (hətta, ümumiyyətlə, qadın) görəndə boynu qırılacaqmış kimi dönüb baxan, eninə-uzununa süzən, beynində xəyallar quran gənclərlə hər gün, hər saat hər küçədə rastlaşmırıqmı?

Təkcə acgöz-acgöz süzməklə yetinməyib, sözlə sataşanlar, seksual məna kəsb edən işarələr verənlər, daha da irəli gedib qadınları təngə gətirənlər saysız hesabsızdır. Tez-tez belə hərəkətlərin üstündə davaya düşənlər, döyüb-döyülənlər də olur. Öldürülənlər də həmçinin.

Günümüzün reallığıdır bu. Bu cür seksual manyaklığın sonu bir çox hallarda "namus üstdə" türməyə düşməklə nəticələnir. Ya özünü saxlaya bilməyib kiminləsə zorla cinsi əlaqədə olan şəxsi tutub türməyə salırlar, ya da yaxını olan qadına sataşan, zorlayan şəxsi vurub şikəst edənləri, öldürənləri.

Bu günlərdə sosial şəbəkədə populyar olan, minlərlə insanı fikir bildirməyə vadar edən "sonuncu vaqon" söhbətinə bir də bu yöndən baxmaq lazımdır.

Bilməyənlər üçün deyim ki, bir qrup naməlum şəxs metroda qadınların rahat getməsi, uzun əllərdən, pis gözlərdən uzaq olması üçün metro qatarlarının sonuncu vaqonlarının sırf qadınlar üçün nəzərdə tutulmasını tövsiyə edirlər. İrandakı kimi.

Bizdə bu təşəbbüs böyük rişxəndlə qarşılandı. Hər halda sosial şəbəkə üzvü olan yeni nəsil ideyanı beşiyindəcə boğmaq təşəbbüsü göstərdilər, bu "layihə"ni nəinki ciddiyə almadılar, hətta satirik şəkildə qamçıladılar.

Ancaq bu, lağlağı predmetinə çevriləcək söhbət deyil, buna ölkənin gələcəyini düşünən ziyalılar, cəmiyyətin avanqard kəsimi ciddi cavablar verməlidirlər. Bu sayaq ciddi reaksiyalar çox az oldu.

Əlbəttə, ölkədə İranı təqlid etmək, onu yamsılamaq, hətta şəriət dövləti quraraq qadınları ictimai həyatdan tamamilə uzaqlaşdırıb hücrələrə qapatmaq istəyənlər var və "sonuncu vaqon" söhbəti onların orta əsr zehniyyətindən doğur.

Bununla belə, bu təşəbbüsü dəstəkləyənlər arasında xeyli sayda qadın qohumlarının ictimai nəqliyyatda narahat edilməməsini arzu edənlər də var.

Gerçəkdən də bu ölkədə heç kəs istəməz ki, küçədə, metroda, avtobusda hansısa ağzıqara bir manyak onun anasına, bacısına, sevgilisinə, qızına pis nəzərlə baxsın, söz atsın, əl uzatsın və s.

Bunu birdəfəlik dərk etmək lazımdır ki, qadınların sırf onlar üçün olan vaqonlara, avtobuslara minmələri, bürünmələri problemi qətiyyən həll etmir.

Problem kişilərdə, seksual manyaklarda, cinsi aclıq çəkənlərdə, özlərini idarə edə bilməyənlərdədir. Sonuncu vaqona onları doldurmaq lazımdır.

Bürünməklə olsaydı, İranda müvafiq vəziyyət çoxdan düzələrdi, zorlamalar, sataşmalar olmazdı. Motosikletlə gedən iki gəncin başlarını geri döndərərək başdan-ayağa bürünmüş qadına hərisliklə baxmasını əks etdirən fotoşəkil zamanında sosial şəbəkədə baxış rekordları qırmışdı.

Bir neçə il öncə Azərbaycandan Təbrizə qonaq getmiş, yerli cəmiyyətə xas şəkildə geyinmiş bir qadın bazarda gəzərkən bir kişi ona qəsdən əli ilə toxunur. Qadın dərhal sərt reaksiya verir, səsini qaldırır və kişi onun zərbələri qarşısında başını tutaraq yalvarmağa başlayır: "Xanım, güzəşt, güzəşt". Çünki o bilir ki, qalmaqal böyüsə, onu təcridxanaya aparacaq və ciddi şəkildə cəzalandıracaqlar.

Bu problemin həlli yolları barədə çox yazmaq olar, ancaq onlardan biri də Qərbdə olduğu kimi, qadınlara sataşanların güzəştsiz cəzalandırılmasıdır. Bəyənmədiyimiz Amerika və Avropada qadına küçədə söz atanları, öz leksikonumuzla desək, "ilişənlər"i məhkəmə, cərimə və digər cəzalar gözləyir.

Qadınların cəmiyyətdən təcrid edilməsinə dair təşəbbüslərin sonu isə Əfqanıstan, Pakistan kimi ölkələrdə və ya İŞİD-in zəbt etdiyi ərazilərdə tətbiq etdiyi üsullara gedib çıxır.

Budur, görüntülü xəbərlər yayılıb: Əfqanıstanda sevgilisinə qoşulub qaçan gənc qadını daş-qalaq edib öldürüblər. Onu qaçırana isə şallaq cəzası kəsiblər. Bu, vəhşilikdir və problemin həlli deyil.

**Bir az uzun söhbətdir, amma qoy ziyalılarımız artmaqda olan manyaklığın ram edilməsi yollarından danışsınlar, yazsınlar. Bunun axırı pis yerə gedir.**

**Prezident son dövrdə ölkədə islahatların genişləndirilməsi və biznes şəraitinin yaxşılaşdırılması məqsədi ilə bir neçə ciddi fərman imzalamış və müvafiq orqanlara tapşırıq vermişdir. Bunlardan ən mühümü lisenziyaların qaydaya salınması, biznesə maneələrin aradan qaldırılması, faizlərin azaldılması üzrə olan qərarlar və göstərişlərdi.**

# Azərbaycanda biznesi necə asanlaşdırmalı - maliyyə professorundan maraqlı təkliflər

## Saleh Məmmədov xarici ticarətin liberallaşdırılmasının yollarını göstərir



**REDAKSİYADAN:** Keçmiş maliyyə naziri, professor Saleh Məmmədov musavat.com saytına yeni məqalə göndərib. Mövzunun aktuallığını nəzərə alıb məqaləni dərc edirik

Keçən məqalədə prezidentin nəzərdə tutduğu islahatları dərinləşdirmək göstərişlərini və planlarını yerinə yetirməyə kömək üçün təqdim etdiyim fərman layihəsində nəzərdə tutulan tədbirlərin geniş formada açılmasına söz vermişdim. İndi bu göstərişlərin yerinə yetirilməsi icrasını hissə-hissə təqdim etmək istəyirəm.

Məsələ burasındadır ki, biznesin asanlaşdırılması istiqamətində Azərbaycan hökuməti xeyli iş görüb və bunun nəticəsi olaraq Dünya Bankının "Doing business" reytinqində yerini xeyli yaxşılaşdırıb. Hazırda Azərbaycan 189 ölkə arasında 63-cü yeri tutur, amma potensialı çox böyükdür. Hətta bəzi sahələr üzrə birinci onluğa çata bilmişik. Ölkəmiz əmlakın qeydiyyatı üzrə 10-cu yerə (2015-ci il metodikasına görə), müəssisələrin qeydiyyatı üzrə 7-ci yerə çıxıb. Amma bu istiqamətdə qoyulan vəzifəni yerinə yetirmək və prezidentin Azərbaycanın dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsinə qaldırmaq strateji məqsədini reallaşdırmaq üçün yalnız birincilik uğurunda mübarizə aparmaq lazımdır. Bu, sadəcə yarış deyil, əgər bu sahədə birinci yeri tuta bilsək, ölkənin çox sürətlə inkişafını təmin edəcək. Mən bunu Azərbaycanlıların iş qabiliyyətinə, biznes və ticarət mentalitetinə, həmçinin ölkənin böyük resurslara malik olması faktlarına söykənərək tam əminliklə deyirəm. Təsadüfi deyildir ki, Dünya Bankının bu siyahısında birinci ilkin yerləri tutan ölkələrin hamısı inkişaf etmiş ölkələrdi, məhz bu yolla da belə səviyyəyə çatıblar. Belə arqumentlər olduğu halda gərək heç kim prezidentin biznes fəaliyyətinin asanlaşdırılması tədbirlərinin əksinə çıxmasın, bu bizə neft və qazı da, qızılı da, digər resursları da əvəz edə biləcək.

Bunu nəzərə alaraq, bütün ölkələri təhlil etdim, Azərbaycanda işin təşkilini yalnız ümumi reytinqdə deyil, həm də ayrı-ayrı sahələrdə birinci yeri tutan ölkələrin prinsipləri əsasında qurmağa çalışdım və hesab edirəm, yaxşı nəticə əldə etdim, bunu təbii ki, bu sahədə çalışan və bu sənədləri hazırlayacaq mütəxəssislər daha yaxşı qiymətləndirə bilər.

Məsələn, biznesə şərait üçün ümumi indeksə görə Sinqapur birinci yerdədi, ayrı-ayrı sahələrdə isə digər ölkələr birinci yerə çıxa bilir. Məsələn, əmlakın qeydiyyatı üzrə Yeni Zelandiya, elektrikə qoşulma üzrə Cənubi Koreya Respublikası və s. birinci yerdədilər, onların təcrübəsi əsas götürülüb. (Bax Cədvəl 1)

Azərbaycanda ən gərgin olan sahələrdən biri də beynəlxalq ticarətdir. Bu sahədə keçən il ölkəmiz 166-cı yerdə idi, amma bu il yeni metodika ilə xeyli irəliləyərək 94-cü yerdə qərarlaşıb. Hətta qanunsuz işlər nəzərə alınsa, sonuncu yerdə olardıq. Beynəlxalq ticarətə yaradılan şəraitə görə keçən il Sinqapur birinci yerdə idi, amma bu il Avropa birliyi ölkələri, xüsusilə Danimarka birinci yerə çıxıb və bizim xarici ticarətimizi bu prinsiplər əsasında qurmamız daha yaxşı olardı. Amma Sinqapurun təcrübəsindən də geniş istifadə etmişik, çünki Sinqapur da tranzit ölkədi, bu cəhətdən də bizə uyğun gəlir.

Cədvəl 2-də idxal və ixrac üçün sənədlərin sayı, vaxt və bir konteyner üçün məsrəflər göstərilib. Bütün göstəricilər üzrə Azərbaycan Danimarkadan və həm də elə Sinqapurdan çox geri qalır. Məsələn, ixrac üçün Danimarkada 4 ədəd sənəd və bunun üçün cəmi 1 saat vaxt tələb olunur, Azərbaycanda isə 7 sənəd və 34 saat vaxt gedir. 34 saata azərbaycanlı fermerin pomidoru və ya meyvəsi xarab ola bilir. Məsrəflər də çoxdu. Biz əslində, ixracatı təşviqləndirməliyik, tam əksinə, bir konteyner malın ixracına 675 dollar məsrəf veririk, elə bir konteynerdən qazanılan mənfəət də adətən o qədər edir. (Bax Cədvəl 2)

Bir sənədlərə nəzər salaq. Nədir bunlar? Avropa ölkələri, Sinqapur, Yeni Zelandiya keçinə bilir bunlarsız, Azərbaycan yox. Cədvəl 3-ün məlumatlarından göründüyü kimi, ixraca Azərbaycanda Sinqapura nisbətən 4, Danimarkaya nisbətən 3 əlavə, idxala isə 2 və 1 əlavə sənəd tələb olunur.

Bu əlavə sənədlərin heç biri mahiyyət etibarı ilə zəruri deyil, demək bunlarsız keçinmək olar. Sənədlərin azalması avtomatik olaraq vaxtın azalmasına, məsrəflərin Sinqapur və Avropa ölkələri səviyyəsinə səviyyəsinə endirilməsinə və bütövlükdə ixracın və uyğun olaraq istehsal tempinin artmasına gətirib çıxaracaq. Hətta yavaş-yavaş elektron hökumət qurularkən bunlara da ehtiyac olmayacaq.

**Bunlar rəsmi olan, qanun və təlimatlarda əks olunmuş gerçəkliklədi. Amma həm də qanundan kənar formalaşmış qaydalar var. Nədi bu yazılmamış qaydalar:**

**1.** Bütün idxal və ixrac ayrı-ayrı mal qrupları üzrə ayrı-ayrı monopolistlərin (inhisarçıların) əlindədir, inhisara nəzarət yüksək çinli dövlət məmuruna mənsubdu. İnhisarda olan hər məhsul üzrə eyni qrupa aid bir neçə şirkət məşğul ola bilər. Əgər başqa birisi eyni adda məhsulun idxalı və ya ixracı ilə məşğul olmaq istəyirsə, yalnız bu şirkətlər vasitəsilə bu işi görə bilər.

**2.** İnhisar ticarət üzrə özəl vergi sistemi fəaliyyət göstərir. Büdcəyə gömrük vergilərinin ödənməsi inhisar şirkətlər vasitəsilə həyata keçirilir, amma alınması zamanı heç bir qanunvericiliyə əməl olunmur, inhisarçı şirkət özü istədiyi kimi və məbləğdə (amma hamı üçün eyni) vergi qoyur, lakin rəsmi vergilərdən qat-qat çox. Məsələn, mənə məlum olan "A" mal vahidinə - Rusiyadan idxal olunan, qanunla 20-25 dollar vergi götürülməlidir, amma 60-56 dolar götürülür ki, bu da onun gömrük dəyərinin 60-70%-i həcmindədir. Eyni proseslər tranzit üzrə var. Tranzit yüklər də yalnız inhisarlar vasitəsilə idarə olunur. Buna görə də ölkədən tranzit qaydada mal ötürülməsi çox baha başa gəlir və ölkəmiz bu coğrafi üstünlükdən yararlana bilmir. Məsələn, bir ton taxılın Rusiyadan İrana ötürülməsi Azərbaycan üzərindən 65 dollara (40-45 dolları rüşvətdi), Dağıstan və ya Həştərxan üzərindən 30 dollar, Qazaxıstan və Türkmənistan üzərindən 35-40 dollara başa gəlirsə, niyə iş adamları bizdən aparmalıdı?

**Beləliklə, bu sahədə prezidentin göstərişlərini yerinə yetirmək, beynəlxalq ticarət rejimini dünyanın ən liberal rejiminə çevirmək üçün Nazirlər Kabinetinin bir qərar hazırlaması və təsdiq etməsi lazımdır. Bu qərar bir neçə müddəadan ibarət olacaq:**

- Beynəlxalq ticarətdə sənədləşmənin qaydaya salınması və gömrükləmə zamanı yalnız dörd sənədin (Qablaşdırma siyahısı yalnız tranzit yüklərdən tələb olunmaq şərti ilə) tələb olunması və prosedurların həyata keçirilməsinin tədriclə Asan xidmətə verilməsi

- İdxal və ixracda inhisar zamanı hər bir sənədin hazırlanmasına və ticarət prosedurlarına konkret vaxt qoyulması və vaxt bitdikdə sənədlərin qəbul olunmuş sayılması

- Tranzit ticarətə şəraitin yaradılması, bütün stavkaların yenidən işlənməsi, rəqabət qabiliyyətli tranzit dərəcələrinin müəyyən olunması

- İdxal, ixrac və tranzit ticarət rejiminin yeni dəyişiklərə uyğun hazırlanması və bu qərarla təsdiq olunması.

Yazılmamış qaydalara gəldikdə isə zənn edirəm, bunun aradan qaldırılmasının bir üsulu var ki, o da prezidentin MTN-nə tətbiq etdiyi üsuldur və yəqin ki, yaxın zamanlarda aradan qaldırılacaq.

**Azərbaycanda növbəti ən bərbad sahə elektrik xətlərinə qoşulma, kredit alma və inşaata icazə almaqdır ki, bu sahələrdə birinci yeri tutan Cənubi Koreya, Yeni Zelandiya və Sinqapurun təcrübəsindən yararlanaraq liberallaşma sistemini hazırlayıb növbəti dəfə oxucuların müzakirəsinə təqdim edəcəm.**

Cədvəl 1

| N | Biznes asanlığı üzrə göstəricilər | Birinci yeri tutan ölkələr | Azərbaycanın tutduğu yer | |
|---|---|---|---|---|
| | | 2016 | 2015* | 2016 |
| | Biznes asanlığı üzrə reytinq səviyyəsi | Sinqapur | 80 | 63 |
| 1 | O cümlədən, müəssisələrin qeydiyyatı üzrə | Y. Zelandiya | 12 | 7 |
| 2 | Tikintiyə icazə alınması | Sinqapur | 150 | 114 |
| 3 | Elektrikə qoşulma | C. Koreya Respublikası | 159 | 110 |
| 4 | Mülkiyyətin qeydiyyatı | Y. Zelandiya | 10 | 22 |
| 5 | Kredit alınması | Y. Zelandiya | 104 | 109 |
| 6 | İnvestorların qorunması | Sinqapur Y. Zelandiya Honkonq | 51 | 36 |
| 7 | Vergiləndirmə | BƏƏ | 33 | 34 |
| 8 | Beynəlxalq ticarət | AB ölkələri | 166 | 94 |
| 9 | Müqavilələrin yerinə yetirilməsi | Sinqapur | 31 | 40 |
| 10 | Ödəmə qabiliyyəti olmayanda problemin həlli | Finlandiya | 94 | 84 |

Cədvəl 2.

| N | Göstəricilər | Avropa birliyi ölk.-Danimarka | Azərbaycan |
|---|---|---|---|
| | İxrac üçün sənədlər, ədəd | 4 | 7 |
| 1 | İxrac üçün vaxt, sərhəddə, saat | 0 | 34 |
| 2 | İxrac üçün vaxt, sənəd hazırlığı, saat | 1 | 35 |
| 3 | İxrac xərci, sərhəd işləmələri üçün (1 konteyner üçün USD) | 0 | 375 |
| 4 | İxrac xərci, sənəd üçün, | 0 | 300 |
| | İdxal üçün sənədlər, ədəd | 0 | 5 |
| 1 | İdxal üçün vaxt, sərhəd üçün, saat | 0 | 32 |
| 2 | İdxal üçün vaxt, sənəd hazırlığı, saat | 1 | 41 |
| 3 | İdxal xərcləri (1 konteyner üçün, USD) | 0 | 423 |
| 4 | İdxal xərcləri, USD | 0 | 200 |

Sənədlər

| N | Sənədlərin adları | Danimarka | Azərbaycan |
|---|---|---|---|
| | İxrac üçün lazım olan sənədlər, sayı | 4 | 7 |
| 1 | İnvoys-faktura | + | + |
| 2 | İxrac gömrük bəyannaməsi (AB üzrə intrastat) | + | + |
| 3 | Mənşə sertifikatı | - | + |
| 4 | Fitosanitariya sertifikatı | - | + |
| 5 | Satış kontraktı | - | + |
| 6 | Transport sənədi – CMR (CMR-Waybill) | + | + |
| 7 | Qablaşdırma siyahısı | + | - |
| | İdxal üçün lazım olan sənədlər-ədəd | 4 | 5 |
| 1 | Mənşə sertifikatı | - | + |
| 2 | CMR- nəqliyyat sənədi | + | + |
| 3 | İnvoys faktura | + | + |
| 4 | İdxal gömrük bəyannaməsi (AB üzrə intrastat) | + | + |
| 5 | Alış kontraktı | - | + |
| 6 | Qablaşdırma siyahısı | + | + |



Ədalət Əliyev

# Bir-birinin ardınca partlayan Rusiya təyyarələri... qəza, yoxsa terror?

## Ədalət Əliyev: "Baş verən birmənalı şəkildə terror aktıdır"

**Dünən Rusiyanın yük təyyarəsi Cənubi Sudanda qəzaya uğrayıb. Təyyarədə 5 ekipaj üzvü və 7 sərnişin olub. Cuba şəhərində baş vermiş qəza nəticəsində yalnız iki sərnişin, o cümlədən bir uşaq sağ qalıb. Bundan qısa müddət öncə, oktyabrın 31-də isə Rusiya aviaşirkətinə məxsus olan və Şarm-əl-Şeyx (Misir)-Sankt-Peterburq (Rusiya) reysi üzrə hərəkət edən təyyarə də qəzaya uğramışdı. Təyyarənin göyərtəsində 17-si uşaq olmaqla 217 sərnişin və 7 heyət üzvü vardı. Onların hamısı qəzada həlak olmuşdu.**

Rusiyanın "Koqalımavia" şirkətinə məxsus "Airbus-A321" təyyarəsinin "qara qutusu"nun deşifrə edilməsi nəticəsində əldə edilən ilkin informasiyalar pilotların son ana qədər öz aralarında təyyarədəki nasazlıq barədə hər hansı müzakirə aparmadıqlarını göstərir.

**Şirkətin direktoru Aleksandr Smirnov** quyruq hissəsində daha əvvəl nasazlıq yaranan təyyarə üzərində Moskvada lazımi təmir işlərinin aparıldığını və təyyarənin texniki baxışdan keçdiyini bildirib. Uçuş heyətinin də təyyarə ilə bağlı hər hansı bir şikayəti olmadığını deyən Smirnov uçuşlara təsir edəcək hər hansı bir finans probleminin olmadığını da vurğulayıb.

Təyyarənin öz başına parçalanmasının mümkün olmadığın deyən Aleksandr Smirnov bunun sadəcə kənardan fiziki və ya mexaniki müdaxilə ilə mümkün ola biləcəyini qeyd edib. Şirkət direktoru həmçinin qəza zamanı uçuş heyətinin təyyarəyə nəzarəti tamamilə itirdiyini də qeyd edib.

**Aviasiya üzrə Rusiya Federal Agentliyinin (Rosaviasiya) rəhbəri Aleksandr Neradko** bildirib ki, aviaqəza barədə "Koqalımavia" şirkəti erkən bəyanat verib.

"Bəli, biz bilirik ki, təyyarənin qalıqlarının səpələndiyi ərazi genişdir. Bu parçalanmanın havada, daha yüksəkdə baş verdiyini göstərir. Lakin bunun səbəbləri barədə danışmaq hələlik tezdir və buna heç bir əsas yoxdur".

Bundan bir neçə ay öncə, 14 iyul 2015-ci ildə də Rusiyanın başqa bir təyyarəsi qəzaya uğrayıb. Qəza zamanı təyyarədə olan 7 ekipaj üzvünün hamısı təyyarənin göyərtəsini tərk etməyə müvəffəq olub.

Bu hadisələrin bir-birinin ardınca baş verməsi isə istər-istəməz bunun aviaterror olması ilə bağlı ehtimalları artırır. Çünki hadisələrdə texniki nasazlıq, daxildən qaynaqlanan hər hansı problemin izləri görünmür. O halda Rusiyaya qarşı terror ehtimalları artırmı?

Mövzu ilə bağlı söhbət etdiyimiz **"AZAL"ın sabiq prezidenti, aviasiya mütəxəssisi Ədalət Əliyev** isə hesab edir ki, son bir ayda baş vermiş iki hadisədə qəza ehtimalı azdır. Belə ki, bu təyyarələri ya partladıblar, ya da vurublar: "Yəni, onu yerdə vurublar, yoxsa təyyarənin içində partlayıcı maddə olub. Amma bu, dəqiq, birmənalıdır ki, terror aktı olub. Yerdə və ya göydə olmasını isə komissiya müəyyən edəcək".

**Müsahibimiz hesab edir ki, oktyabrın 31-də baş vermiş təyyarə partlayışının siyasi səbəbləri var:** "Rusiyanın Suriya ərazisində müharibə aparması, hərbi qüvvələri hərəkətə gətirməsinə Misir də o formada təxribat ediblər. Kim işin içində olub, konkret necə törədib, bunu araşdırmaq lazımdır. Bütün hallarda bunu edən hava limanında işləyən adamlardan biridir".

**Ə.Əliyev hesab edir ki, təhlükəsizlik qüvvələri bu hadisələri araşdırıb, kimin etdiyini üzə çıxarmasa bu cür hadisələr davamlı olacaq.**

❑ Sevinc TELMANQIZI



# Qul bazarındakı şəhid atası prezidentdən kömək istədi

## "Daha daş daşıya bilmirəm, qarovulçuluq işi tapmağıma yardım et..."

**Ağsu rayonunda yaşayan şəhid atası dövlət başçısı İlham Əliyevə müraciət edərək kömək istəyir. Daşdəmirbəyli kənd sakini İntiqam Bağırov qul bazarında dayanmaqla artıq ailəsini dolandıra bilmədiyini vurğulayır və dövlət başçısından bir qədər yüngül iş istəyir,- məsələn, heç olmasa, oğlunun şəkli yapışdırılan kənd məktəbində qarovulçuluq işi... Şəhid atası bildirir ki, dolanışığının çətin olmasına, digər iki oğlunun və özünün işsiz olmasına baxmayaraq, heç onlara sosial yardım da verilmir. İşsiz ailənin kənddəki və rayondakı dükanlara, apteklərə xeyli borcu yığılıb qalıb. Kömək üçün üz tutduğu aidiyyatı qurumlar isə onun müraciətlərini cavabsız qoyub...**



İntiqam Bağırov əməkdaşımızla söhbət zamanı bildirib ki, neçə illərdir qul bazarında fəhləlik edərək ailəsinə çörəkpulu qazanır: "Artıq səhhətim ağır iş görməyə imkan vermir, daş qaldıra, daş daşıya bilmirəm. Dəfələrlə icra hakimiyyətinə, sosial müdafiəyə, nə bilim, ümidim hara çatıbsa, getmişəm, ailəmi dolandırmağa iş istəmişəm. Heç bir nəticəsi olmayıb. Heç olmasa, kənd məktəbində qarovulçuluq işi belə vermədilər. Həmin məktəbə oğlum Vahidin şəklini asıblar. Oğlum 2012-ci ildə şəhid olub. Şəkli vurulan məktəbdə oxuyub oğlum...".



**İ.Bağırov deyir ki, dəfələrlə Ağsu rayonunun icra başçısının da yanına gedib:** "Uşaqların heç biri işləmir, ailəyə təkcə mən baxıram. Qazancım da o qul bazarından çıxır, uşaqlar işsizdirlər, ailələri ancaq bizim pensiyamızdan asılıdır. O da ki, heç dava-dərmana çatmır. Ocağım onsuz da sönüb. Rəsmilər bu ağrı-acını başa düşmürlər. Bu, bir yana, problemlərimizə tamamilə etinasızdırlar. Sosial yardım almaq üçün müraciət etmişəm, deyirlər ki, bizə düşmür. Yararsız pay torpağımız var, heç nə əkib-becərmək mümkün deyil. İcra başçısı bir dəfə dedi ki, icradan İlqar müəllimi göndərəcək bizim dərdimizi dinləyib, kömək etsin. Səs-soraq yoxdur. İlllərlə deputatımızı belə görmürük. Hərə öz kefindədir, xalqla maraqlanan yoxdur. Bələdiyyə də torpaq vermir, yəqin hamısını satıblar. Uşaqlarım xəstədir, müalicə üçün pul tapa bilmirəm. Həyat yoldaşım da oğlum şəhid olandan bəri xəstədir. Neçə aptekə borcum var, ödəyə bilmirəm. Həkimə getməyə pul yoxdur artıq, o ki, qalmışdı resepti almağa". Şəhidin anası isə dinmir, deyir ki, "Olan oldu, balam öldü, daha nə deyim ki?.."

❑ Röya RƏFİYEVA
Fotolar müəllfindir

# Rusiya Azərbaycana niyə çox medal verir?

## Natiq Miri: "Rusiya Azərbaycanın istəklərinə əməl etmədən, bizi öz "orbit"ində saxlamaq istəyir"

**Sovet dövründə müxtəlif peşə sahiblərinə Moskvadan medal verilməsi ənənəsi bu gün də Rusiya tərəfindən davam etdirilir. Ancaq məsələ burasındadır ki, son zamanlar Rusiya hökuməti tərəfindən postsovet ölkələri arasında daha çox Azərbaycanın ictimai-siyasi şəxslərinə müxtəlif orden-medallar təqdim olunur. Məsələn, son olaraq noyabrın 2-də mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev "Stanislavski medalı" ilə təltif olunub.**



Natiq Miri

**Məsələ ilə bağlı "Yeni Müsavat"a danışan politoloq Natiq Miri bildirib ki, Rusiya bu üsuldan şirnikləndirici vasitə kimi istifadə edir:** "Eyni zamanda, Rusiya bu mükafatı hər adama vermir. Rusiyaya müsbət münasibəti olan ictimai-siyasi şəxslərə verir ki, bu da sözügedən ölkənin Azərbaycanda mövqeyini müəyyən mənada gücləndirir. Onlar bu metoddan daha öncə də istifadə ediblər. Son zamanlar isə bu proses daha da intensivləşib. Bu təltifləri özü də bir daha onu göstərir ki, bəli, Rusiyanın Azərbaycan konteksində çox ciddi siyasi niyyətləri var və heç bir halda bu ölkəni geosiyasi maraqlarından kənarda saxlamaq istəmir. Parlament seçkilərində də Rusiyanın bütün media və siyasi dairələrinin açıq formada Azərbaycan seçkilərini dəstəkləməsi, bu kontekstdə ATƏT-i belə tənqid atəşinə tutması da yuxarıda qeyd etdiyim kimi yeni məqsədlərdən xəbər verir. Eyni zamanda, hazırda hadisələr Gömrük İttifaqı və Avrasiya birliyi layihələri ətrafında da cərəyan edir. Bu isə Azərbaycanın dövlət maraqlarına heç də uyğun gəlmir".

**Ekspert bildirib ki, hazırda Rusiya yalnız söz və bu kimi hədiyyələrlə Azərbaycanla münasibətləri normal saxlamağa çalışır:** "Rusiya Azərbaycanın istəklərinə əməl etmədən, bizi öz "orbit"ində saxlamaq istəyir. Bunun arxasında konkret ciddi nəticələr doğura biləcək əməllər yoxdur. Azərbaycanın strateji marağında olan Dağlıq Qarabağ probleminin həlli istiqamətində hələlik, hər hansı bir ciddi addımlar görmürük. Ola bilsin ki, Rusiya Azərbaycan arasında siyasi bazarlıqlar gedir. Ancaq bu barədə ictimaiyyət məlumatlı deyil. Əgər Dağlıq Qarabağ mövzusunda hansısa qlobal anlaşma olacaqsa, Ermənistanda da bu proses özünü göstərməlidir. Ermənistanda artıq konstitusiyanın dəyişdirilməsi yönündə islahatların aparılmasına başlayıb. Konstitusiya dəyişdirilərsə, Ermənistan prezident üsul-idarəsindən, parlament üsul- idarəsinə keçəcək. Bu da Ermənistan hakimiyyətinə bilavasitə Dağlıq Qarabağ yönündə müəyyən güzəştlərin edilməsi, yaxud da 7 rayonun qaytarılması kimi məsuliyyətlərdən qaçmasına imkan yaradacaq. Bir var ölkə prezidenti hər hansı bir məsuliyyət daşıyaraq birbaşa qərara qol çəkir, bir də var parlament üsul-idarəsində bu qərar kollektiv olaraq qəbul edilir. Mənə elə gəlir ki, Sərkisyan hakimiyyəti məhz bu prosesə hazırlaşır. Ona görə də əgər gələcəkdə Dağlıq Qarabağ yönündə müsbət addımlar atılacaqsa və Rusiya Ermənistanı Qarabağ ətrafı rayonları boşaltmağa vadar edə biləcəksə, o zaman hesab edirəm ki, Avrasiya birliyi ilə bağlı məsələyə müsbət baxacağıq. Artıq bu yöndə çox ciddi siyasi ismarıclar da verilməkdədir. Məsələ həm də Azərbaycanın yüksək rütbəli məmurları tərəfindən müxtəlif zamanlarda dilə gətirilib. Bunlar hamısı prosesdə həm Azərbaycanın ictimai rəyinin hazırlaması, həm də Rusiyaya yönəlik ismarıc kimi qəbul edilməlidir. Bu baxımdan Azərbaycanın Avrasiya Birliyinə qoşulması məsələsini qətiyyən istisna etmirəm. Bunu da nəzərə alaq ki, artıq Milli Məclis də müəyyən mənada Rusiya modeli üzərində qurulldu. Bu kontekstdə Azərbaycan-Qərb qarşıdurması hələ də davam edir. Əsas məsələ Azərbaycanın da Rusiyadan istədiklərini ala bilməsidir. Bu baş verməsə, Avrasiya Birliyinə üzvlük də baş tutmayacaq".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 246 (6274) 5 noyabr 2015

**Dünyanın ən köhnə iki peşəsindən biri falçılıq sayılır. Bəşər övladının daim intizarda olması, maraq etməsi, nigarançılığı bu peşəni də uzunömürlü edib. Elə bu səbəbdəndir ki, indi Hollandiyadan tutmuş, Çinə, Amerikaya qədər dünyanın bir çox ölkələrində, iri şəhərlərinin küçələrində əl falı, qəhvə falı, kart falı geniş yayılıb. Bəzən Avropanın şəhərlərində də belə mənzərə ilə qarşılaşmaq mümkündür: masasını küçənin bir kənarına qoyub, fala baxdırması üçün insanları dəvət edən, daha sonra isə üzünə ciddi ifadə verib, onlara gələcəyi söyləyən əndrəbadi görünüşlü insanlar ordusu...**



# Qanun onları qadağan etdi, bəs insanlar?

## Prezidentlərin, polislərin, bankirlərin... "sağ əli" falçılar barədə bilmədiklərimiz; Azərbaycanda təkcə bir ildə falçılıq və cadugərliyə 200 milyon manat xərclənib...

Mövzunu Azərbaycan oxucusu üçün aktual edən isə heç şübhəsiz ki, noyabrın 3-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən verilən açıqlama oldu. Qurbanlı bildirdi ki, dini ayinlərin və mərasimlərin yalnız rəsmi aidiyyəti şəxslər tərəfindən keçirilməsi ilə bağlı Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən qərar layihəsi hazırlanır. Qərar layihəsinin Nazirlər Kabinetinə təqdim olunacağını deyən M.Qurbanlı qeyd edib ki, bu qərarın qüvvəyə minməsi ilə eyni zamanda falçılıqla məşğul olanların da fəaliyyəti qadağan olunacaq: "Səmavi dinlərdə, o cümlədən İslamda falçılıq onsuz da qəbul edilmir".

Komitə sədri bildirib ki, belə hallara yol verən şəxslər həmin qərar əsasında ciddi cəzalandırılacaqlar.

### "İnsanlar "gələcəyi" başqasının dilindən eşitmək istəyirlər"

Çikaqo Universitetinin müqayisəli din üzrə mütəxəssisi Mirça Eliadanın araşdırmasına görə, hazırda Qərbin inkişaf etmiş ölkələrində falçılığa meyl artır. Hətta savadı və dünyagörüşü yüksək səviyyədə olan insanlar da bunu "yeni elmi cərəyan" adı ilə təqdim etməkdən çəkinmirlər.

"Yeni əsr"in milyonlarla sakini gələcəyi öyrənmək, çoxsaylı suallarına cavab tapmaq üçün onların qapısını döyür. M.Eliada araşdırmasında onu da üzə çıxarıb ki, artıq insanlar təkcə bu şəxslərin xidmətindən yararlanmır. Eyni zamanda bu sahəyə aid elmi ədəbiyyatı oxuyur, hətta bəzən falçılıqla həvəskar səviyyəsində məşğul olurlar.

Türkiyəli psixoloq Gülçin Balkı isə açıqlayıb ki, son illər insanların falçılara, astroloji proqnozlara bu qədər meyl etməsinin səbəbi bilinməzə marağının artmasıdır. Bu ehtiyacın mərkəzində isə insanların qərar verməmədəki özünə inamsızlığıdır. Belə ki, falçıya gedən insanlar "gözlənilən" hadisələri başqasının dilindən eşitmək ehtiyacı duyur. Bu isə məsuliyyətin paylaşılması istəyindən irəli gəlir. Psixoloqa görə, bunun adı insanın özünü aldatmasından başqa bir şey deyil. Belə ki, xarakteri güclü olan insan qərarlarını öz iradəsi ilə verir və bu məsuliyyəti də şəxsən özü paylaşır.

### Prezident falçıya qulaq asdı, seçkini uduzdu

Tarixin müxtəlif dönəmlərində ölkəni idarə edən şəxslərin şəxsi falçıları, münəccimləri olduğunu nəzərə alanda bu olaya o qədər də barmaqarası yanaşmaq olmaz. Siyasi qərarlarını verməndən, müharibəyə başlamadan öncə kart açdırıb, rəml atdıran nə qədər padşah, prezident olub, xəbəriniz varmı? Və bəzən falçıya inandığı üçün "ağzı yanan"lar da həmçinin.

Məsələn, falçısının tövsiyəsi ilə sürpriz erkən seçkilərə gedən Şri-Lanka prezidenti Mahinda Rajapaksanın nümunəsi olduqca əyləncəlidir. Maraqlıdır ki, falçısının məsləhəti ilə erkən seçimə gedən və seçkilərdə uduzan prezident mediaya açıqlamasında özünü məhz bu cür müdafiə etmişdi: "Hətta Nostradamus da səhv edə bilər. Mənim falçım da istisna deyil. Səslərin cəmi 41 faizini alacağımı heç vaxt təxmin etməzdim".

Bu uğursuzluqdan sonra falçı Sumanadasa Abeygunavardena prezidentlə yollarını ayırmalı olub. Çünki sonuncu bu fiaskosunu şəksiz falçısına "borclu idi". Üstəlik, məlum hadisədən sonra falçının da populyarlığı sıfıra enmişdi.

### Rusiyada falçıların illik gəliri 2 milyard dollardır

Dünya təcrübəsi ilə davam edək. Tacikistanda cinayət məcəlləsi falçılıqla məşğul olan şəxsləri cəzalandırmağı nəzərdə tutur. Bu ölkədə falçılar da dələduzluq edən digər şəxslər kimi 7 ilə qədər həbslə cəzalandırıla bilər.

Rusiyada isə falçı və cadugər sayı həkim, elm adamlarının sayını keçməyə başlayıb. Ölkədə xərçəng xəstələri həkimdən öncə falçının qapısını döyür. Bu ölkədə falçıların illik gəliri iki milyard dollardır. Rusiya parlamenti də son olaraq sertifikatı olmayan falçılara reklam qadağası gətirmişdi. Rusiyada rəsmi icazə alandan sonra falçılıqla məşğul olmağa hər hansı qadağa yoxdur. Hazırda Rusiyada təxminən 800 min nəfər falçılıqla, cadu-piti ilə, astologiya ilə məşğul olurlar. Buna qarşılıq olaraq ölkədə cəmi 600 min həkim və 400 min elm adamı var.

Moskvada isə insanları cadu yolu ilə müalicə edənlərin sayı 200 nəfərə yaxındır. Rəsmi rəqəmlərə görə, falçı və cadugərlərin illik reklam həcmi 10 milyon dolları keçir. Amma falçıların qapısını ancaq cahil insanlar döymür. Rusiyada xüsusi xidmət orqanları əməkdaşları da zaman-zaman falçıların xidmətindən yararlanırlar. İtkin insanları, cinayətkarları tapmaq, çözülməyən qətlləri, oğurluqları, cinayətləri üzə çıxarmaq üçün...

Banklar də zaman-zaman falçıların "əl-ayağına" düşür. Məsələn, borcluların yerini və gizlətdikləri əşyaların yerini falçı olmadan necə tapmaq olar? Cənubi Osetiyada bu təcrübə daha çox özünü göstərməyə başlayıb.

### Rumıniyada yeni qanun - falın düz çıxmasa, pulu qaytarmalısan!

Falçılığın ana vətəni kimi tanınan Rumıniyada isə falçılarla bağlı zaman-zaman yeni qanunlar qüvvəyə minir və ölkə bir-birinə qarışır. Məsələn, 2011-ci ildə hökumətin verdiyi qərara görə, gələcəyini öyrənmək üçün falçıya müraciət edən şəxsə sonuncunun verdiyi proqnoz düz çıxmazsa, bu, özünü doğrultmasa, falçı ondan aldığı pulu geri qaytarmalıdır.

Maraqlıdır ki, bu qanun layihəsi qüvvəyə mindiyi gün minlərlə falçı Rumıniyada etiraz aksiyası, ardınca mətbuat konfransı keçirmişdi. Həmin konfransda falçılar etiraf etmişdi ki, bəzən fal düz çıxmaya bilər və buna səbəb isə fala baxdıran şəxsin suallara səmimi, doğru cavab verməməsidir. Amma maraqlıdır ki, 2010-cu ildə də Rumıniyada falçılıq rəsmi məslək kimi qanunvericiliyə daxil edilib. Bu məsləyi icra edənlərin dövlətə vergi verməsi, fəaliyyətlərinin də iş yeri kimi qeydiyyata salınması faktdır.

Sizə lətifə kimi görünə bilər, amma həmin vaxt hökuməti bu qanunun qəbulundan çəkindirməyə çalışan falçılar istəklərinə nail olmadıqları üçün təhdidə keçdilər: qanunu geri oxumasaz, sizi qara magiya edəcəyik. Və dediklərini etdilər. Tuna çayı sahilində bir yerə yığışıb, sağa-sola üfləyən, sehirli sözlər söyləyən... falçılar daha sonra bəd dualarını yazdıqları kağız parçalarını çayın sularına atdılar. Nəticəsi oldumu? Təbii ki, bu olaydan sonra bir neçə məmur işdən çıxdı, bəzi siyasi gəlişmələr baş verdi. Bunu caduların nəticəsi kimi görmək də olar, görməmək də...

Amma bu hadisə Rumıniyada falçıların, cadugərlərin yolunu açdı. Reklamın yaxşısı-pisi olmaz deyimini nəzərə alanda xalq bu hadisələrlə əslində sözügedən məslək yiyələrinin necə ciddiyə alındığını gördü.

### Azərbaycanda falçıların silsilə həbsi...

Qayıdaq Azərbaycana. 2013-cü ildə İqtisadiyyat və Sosial Araşdırmalar mərkəzinin nümayəndəsi Vüqar Bayramov "Exo" qəzetinə açıqlamasında demişdi ki, Azərbaycanda falçılıq və cadugərliyə 2012-ci ildə 200 milyon manat pul xərclənib. Onun sözlərinə görə, bu əvvəlki illərlə nisbətdə fantastik artımdır. "Əvvəllər bu göstərici daha aşağı idi. Xərclənən məbləğ heç 100 milyon manata çatmırdı. Ancaq ötən il apardığımız monitorinq bizi pis mənada təəccübləndirdi. Göstərici 2 dəfədən də artıq artmışdı", - deyə ekspert bildirmişdi.

Demək, bizdə də bu sahəyə ciddi məbləğlər ayrılıb. Amma son aylarda falçıların bir-bir həbs olunması ciddi hadisə sayılır. Nizami rayon 23-cü Polis Bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində, 2014-cü ilin noyabr ayında Bakı şəhər sakini Təranə Babayevanın etibarından sui istifadə edərək özünü ekstrasens kimi təqdim etməklə 4200 manatını alaraq dələduzluqda şübhəli bilinən Bakı şəhər sakini, 1960-cı il təvəllüdlü Tamilla Salamova tutulub. Hadisə bu yaxınlarda baş verib.

Məmurlara yaxın olduğunu iddia edən 1949-cu il təvəllüdlü Saraxanım Süleyman qızı Babayeva 7 il müddətinə azadlıqdan məhrum olunub. "Həzrət Sabir" kimi tanınan falçı Sabir Abbasov həbs edilib. "Cənnət Parapsixologiya Mərkəzi" MMC-nin direktoru, dövrümüzün "Şeyx Nəsrullahı" sayılan "Həzrət Sabir" əlil arabasında olan əlilləri əllə müalicə etdiyini söyləməklə külli miqdarda vəsait mənimsəməkdə ittiham edilir.

**Bəs qanun nə deyir? Cinayət Məcəlləsinin 178-ci maddəsinə görə, etibardan sui-istifadə etmə və ya aldatma yolu ilə özgənin əmlakını ələ keçirmə və ya əmlak hüquqlarını əldə etmə - dələduzluq cinayətinin əlamətləridir. Falçılar insanların onlara göstərdiyi etibardan sui-istifadə edirlər. Xəstəni müalicə edəcəyi, itkin insanı tapacağı vədini verən şəxs bütün hallarda qarşı tərəfi aldatmış sayılır. Məqsəd yenə də haqsız qazanc təmin etmək, başqasının əmlakını ələ keçirməkdir. Əvvəlcədən insanı aldadıb və ya etibarından sui-istifadə edib, həlli mümkün olmayan işi vəd verməklə pulunu almaq artıq dələduzluq hərəkətidir.**

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 246 (6274) 5 noyabr 2015

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Yeni təhlükə: NATO və KTMT Qarabağda üz-üzə gələ bilər

**Rus qoşunlarının "KTMT" bayrağı altında Qarabağa gətiriləcəyi barədə xəbərlər çoxalıb; erməni mətbuatı hiyləgərcəsinə bunu "Qarabağın itirilməsi" sayır; NATO rəsmisi Moskvanın oyunlarından narahatdır, ekspertlər isə deyir ki...**

**Azərbaycandakı parlament seçkilərindən sonra Qarabağ ətrafında gərginliyin yenidən arta biləcəyi ehtimalından ötən saylarımızda bəhs etmişdik. Rusiyalı politoloq və şərqşünas Aleksandr Krılov da erməni portalına açıqlamasında 1 noyabr seçkilərindən dərhal sonra təmas xəttində yeni gərginliyin başlaya biləcəyini deyib.**





**Belə bir ərəfədə işağl altındakı ərazilərə sülhməramlıların yerləşdirilməsi ideyası yenidən gündəmə gətirilib.** Son bir ay ərzində davamlı şəkildə Rusiya sülhməramlılarının münaqişə bölgəsinə gətirilməsi ehtimalından bəhs olunurdusa, artıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Dağlıq Qarabağa qoşun yeritməyə hazırlaşdığı haqda məlumatlar dövriyyəyə buraxılb. KTMT baş katibinin müavini Valeri Semerikov bildirib ki, qurum yalnız üzv ölkələrin ərazisində deyil, kənarda da, o cümlədən Qarabağda da sülhməramlı missiya gerçəkləşdirə bilər.

**Məntiqlə KTMT-nin üzvü olmayan ölkənin ərazisinə onun qüvvələrinin yerləşdirilməsi mümkün deyil.** Üstəlik, ATƏT-in Minsk qrupunun həmsədrinin bu prosesdə iştirakına yasaq var. Lakin Rusiyanın qadağa və sərhəd tanımadığını sonuncu Suriya hadisələrində müşahidə etməkdəyik. Amerikalı həmsədr Ceyms Uorlik də deyib ki, münaqişənin həllində maraqlı dövlətlər - ABŞ, Fransa və Rusiya sülhməramlı missiyada iştirak edə bilməz. Maraqlısı budur ki, erməni qəzeti də Moskvanın layihəsinə qarşı çıxıb. Yazıb ki, Rusiya indi bunu KTMT pərdəsi altında etmək istəyir, "Rusiyanın bölgəyə qoşun yeritməsi Qarabağın tamamilə itirilməsi deməkdir".

**Bu arada NATO-nun davranışları da diqqət çəkir. Qurumun Cənubi Qafqazda əlaqələr üzrə zabiti Ulyam Laxyu İrəvanda keçirilən NATO həftəsində Azərbaycanla bağlı mövqeyi ilə erməniləri məyus edib.** Ermənistan mətbuatı yazıb ki, zabitə Azərbaycan tərəfinin Türkiyə istehsalı olan silahlardan istifadəsinə dair məlumatlara münasibəti bildirməsi ilə bağlı sual ünvanlanıb. Azərbaycana Türkiyədən silah idxalına münasibət bildirən NATO rəsmisi "NATO təşkilat kimi öz suveren üzvlərinə necə siyasət aparmasını əmr edə bilməz", - deyə vurğulayıb. Erməni mətbuatı isə NATO zabitini ümumilikdə regionda nələrin baş verdiyindən xəbərsiz olmaqda ittiham edib. Mətbuat NATO zabitini hədəfə alaraq "Türkiyə istehsalı olan silahlardan istifadə edildiyini bilməyən NATO təmsilçisinin silahların əsasən Rusiyaya aid olduğunu deməsi paradoksdur" - qeyd edib.

**NATO təmsilçisi Rusiyanın Qarabağ əsələsində tutduğu mövqedən narahatlığını da bildirib.** Bəzi müşahidəçilər Cənubi Qafqazın NATO üçün də vazkeçilməz olduğunu vurğulayaraq Alyansın Rusiyaya öz qoşunlarını Qarabağda yerləşdirməsinə imkan verməyəcəyini düşünürlər. Hesab olunur ki, hətta rus bazasının olduğu Ermənistanı da Moskvanın təsir dairəsindən çıxartmaq istəyən, hətta bunun üçün Türkiyə-Ermənistan sərhədlərinin açılmasına cəhdlər göstərən Qərb Azərbaycana rus ordusunun KTMT bayrağı altında qaytarılmasına imkan verməz. Belə olan təqdirdə Rusiya-NATO toqquşmasının ola biləcəti ehtimalı da gündəmə gəlir.

**Hərbi ekspert Üzeyir Cəfərov** "Yeni Müsavat"a bildirdi ki, KTMT qoşunları ilə bağlı xəbəri erməni tərəfinin növbəti hiyləsi sayır: "Fikir verin, əlləri hər yerdən üzülən xaçiklər, bu dəfə tamam başqa bir not üzərində kökləniblər. Əvvəllər buna çox can atan Ermənistan, indi də dünən dedikləri və arzuladıqları vəziyyəti tam əks istiqamətdə bizlərə təqdim edirlər. Guya KTMT qoşunlarının Qarabağa yerləşdirilməsi, bunlara qətiyyən sərf eləmir və onlar bundan bərk narahatdırlar. Necə deyərlər, ay siz öləsiniz. Biz bilirik siz bu reallaşması mümkün olmayan və ən çox olsa belə Ermənistanın və havadarlarının maraqlarına hesablanmış bu absurdluq əslində Qarabağ ümidlərimizin üzərindən ən azından bir 20 il də xətt çəkilməsi deməkdir. Başqalarını deyə bilmərəm, amma mənə görünən və daha çox narahat edən məqamlardan biridir hadisələrin bu şəkildə inkişafı. Mən Rusiyadan ölkəmizlə bağlı hər hansı xoş addımın atılacağını yaxın zamanlarda gözləmirəm. Ən azından ona görə ki, bu vaxta kimi Rusiya istəsəydi, bəlkə də çoxdan Qarabağdan işğalçı Ermənistanın, özünün bilavasitə himayə etdiyi qoşunların geri çəkilməsinə çalışardı".

**Ü.Cəfərova görə, əksinə, Rusiya Ermənistana hər imkandan yararlanaraq silah-sursat, digər yardımlar edir:** "Mən şəxsən tanıdığım NATO-nun Cənubi Qafqaz üzrə əlaqə zabiti Uilyam Lahyunun dünən Ermənistandakı NATO həftəsi çərçivəsində keçirilən mətbuat konfransında dediyi acı, lakin həqiqəti əks etdirən sözlərinə tam qatılıram və onun narahatçılığını da haqlı sayıram. Bəli, Rusiya üçün Cənubi Qafqazda münaqişələrin çox olması və onun uzunmüddətli olması çox sərf edir. Həm silah-sursat satışı, həm guya sülhyaratma missiyası çərçivəsində öz maraqlarını digər dövlətlərə də diqtə etməsi onu düşünməyə əsas verir ki, belə gedişlə biz hələ bir neçə on illiklər də Qarabağ məsələsinin həll olunmasının şahidi olmayacağıq. NATO-nun Qarabağla bağlı Rusiya tərəfinə iradı hesab edirəm ki, açıq mətnlə deyilmiş və artıq dözülməsi mümkün olmayan bir diplomatik xəbərdarlıqdır. İnanmıram ki NATO ilə Rusiya Qarabağda toqquşa bilsinlər, amma bildiyim ondan ibarətdir ki, artıq bu iki super güc əvvəlki qaydada daha diplomatik dildə deyil, daha sadə və açıq şəkildə real vəziyyəti səsləndirməyə başlayıblar. Biz də NATO nümayəndəsinin narahatçılığını adi söz kimi qəbul etməməliyik. Bu ölkəmiz üçün də bir mesajdır ki, Azərbaycan çox da Rusiyanın Qarabağla bağlı son vaxtlar şirnikləndirici sözlərinə çox da inanmasın".

**Politoloq Arzu Nağıyev** düşünmür ki, parlament seçkilərindən sonra Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində mühüm bir dəyişiklik baş verə bilər: "Bunun da bir neçə səbəbi var. Yəni parlamnetdə münaqişə ilə bağlı qərar qəbul edilə, ATƏT -ə və maraqlı dövlətlərə müraciətlər edilə bilər. Eyni zamanda qapalı şəkildə münaqişə ilə bağlı güc və digər strukturlarınının hesabatı dinlənilə bilər,yeni konsepsiya hazırlanar. Eyni zamanda ATƏT-in Mimsk Qrupuna tövsiyyələr verilməklə tələblər qoyula bilər. Bir sözlə, yaranmış status-kvonun nəhayət, pozulması istiqamətində diplomatik, siyasi addımlar atıla bilər. Bundan başqa ordu quruculuğu istiqamətində də bir sıra qərarlar qəbul edilməsində Parlamentin vacib qərarlarının da qəbul edilməsi istisna edilmir".

**A.Nağıyev deyir ki, Rusiya münaqişənin həlli istiqamətində bəyanatlar verməklə regionda söz sahibi olmasını nümayiş etdirmək üçün müəyyən addımlar atır:** "Bu da səbəbsiz deyil. ABŞ-ın təşəbbüsü ələ almaq cəhdləri də Rusiyanı qıcıqlandıdır və atəşkəsin dəfələrlə pozulmasına zəmin yaradır. Belə bir şəraitdə dövlət başçılarının görüşmələri də ehtimal olaraq qalır və inandırıcı görünmür. Bütün bu proseslər və danışıqlar ermənilər tərəfindən biləkdən uzadılır. Səbəblərdən biri Ermənistanda prezident səlahiyyəti ilə bağlı Konstitisiyaya əlavələrə aid referendumun keçiriləcəyidir.Yəni bu referendum baş tutsa, Ermənistanda prezident bir sıra məsələləri, o cümlədən müdafiə məsələlərini də parlamentlə razılaşdırmalıdır. Təbii ki, bu da vaxt tələb edən proseslərdir və bizi razı sala bilməz. Çıxış yolu hərbi yol, daha doğrusu, ermənilərə və onların havadarlarına hərbi güc nümayiş etdirib danışıqlar masası arxasında məcburi əyləşdirməkdir".

**KTMT-nin qoşunlarının bölgəyə yeridilməsinə gəldikdə, A.Nağıyev deyir ki, bu, ermənilərin növbəti dezinformasiyasıdır:** "Məlumdur ki, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və istər KTMT, istərsə də NATO Azərbaycanın icazəsi olmadan bizim əraziyə girə bilməz. Hətta xarici dövlətin ərazisində hər hansı bir hərbi əməliyyatlar aparılması üçün müvafiq qaydada bu rəsmiləşdirilməlidir. Eyni zamanda KTMT tək Rusiya hərbi birləşmələri demək deyil, burada Ermənistanın özü də təmsil edilir. Burada başqa məsələ isə məhz İranla Azərbaycanın sərhəddində yerləşən "boz zonaya" qoşun çıxarmaq cəhdidir, cünki NATO, daha doğrusu, ABŞ və Avropa İrandan sanksiyaları ləğv etdikdən sonra müttəfiq kimi çıxış etsələr, hərbi manevrlər edə bilərlər deyə və ya Ermənistanın və Rusiyanın artıq Dağlıq Qarabağ ərazindəki qanunsuz hərbi birləşmələrinin leqallaşdırılması cəhdidir".

**Rusiya və NATO arasında Qarabağ toqquşasının ola biləcəyini isə ekspert real saymır:** "Yəni bunun baş verməsi üçün həmin hərbi birləşmələr ora yeridilməlidir. Hazırda isə belə bir dəqiqi məlumat yoxdur. Yuxarıda qeyd edildiyi kimi, Dağlıq Qarabağ Azərbaycan ərazisidir və istər Rusiya ,istərsə də NATO Azərbaycanın icazəsi olmadan bizim əraziyə girə bilməz.Təbii ki, münaqişənin həllində Rusiya açar ölkədir,lakin bu o demək deyil ki, istədiyi kimi hərəkət etsin, bundan başqa, bu ərazilərdə də müharibə aparmaq Rusiya üçün, onun iqtisadiyyatı üçün zərbə deməkdir. Təcrübələr göstərir ki, Rusiya postsovet ərazilərdə özünü yaratdığı müharibə ocaqlarında əsasən "xüsusi status" məsələsini ortaya atır. Bu Moldovada da belə oldu, hazırda Ukraynada da tətbiq edilməkdədir. Bir sözlə, bu məsələlər ermənilərin növbəti təxribatıdır və bu yolla Rusiyanı tam şəkildə münaqişəyə qoşmağa çalışırlar".

**Politoloq Şahin Cəfərli** isə KTMT-nin bölgəyə yeridilməsini mümkün saymır: "KTMT hansı statusla bölgəyə qoşun yeridə bilər? Bu, mümkün deyil. Yalnız Azərbaycan və Ermənistan münaqişənin həlli üçün razılığa gələrsə və sülhməramlı kontingent yeridilməsi üçün anlaşarsa, o halda hansısa xarici hərbi qüvvə butra gələ bilər. O halda KTMT da, NATO ölkələri də kontingent göndərə bilər. Lakin buna hər iki tərəfin razılıq verməsi lazımdır".

**Qarabağ Azadlıq Təşkilatı (QAT) isə məsələ ilə bağlı kəskin bəyanat yayıb. Sənəddə deyilir:** "QAT Rusiya qoşunlarının Qarabağa yeridilməsi niyyəti ilə bağlı yayılan məlumatları qəzəblə qarşılayır. Bu məlumatlar Rusiyanın məkrli və təhlükəli planlarından xəbər verir. Azərbaycan hakimiyyəti və xalqı heç bir halda bu varianta razılaşmamalıdır. Azərbaycan Rusiyadan heç vaxt xeyir görməyib, Azərbaycanın başına gətirilən bütün fəlakətlərdə Rusiyanın birbaşa və ya dolayısı ilə iştirakı olub. Dağlıq Qarabağ münaqişəsi də Rusiya tərəfindən yaradılıb, bu gün münaqişənin ədalətli həllinə mane olan əsas qüvvə Rusiyadır". Təşkilat xatırladıb ki, Rusiya həmişə Ermənistanı müdafiə edib, bu gün də həmin siyasəti davam etdirir: "Rusiyanın Ermənistandakı hərbi bazaları ermənilərin ixtiyarındadır. Həmin bazalar Azərbaycana qarşı təhdid və təzyiq mənbəyidir. Rusiyanın 366-cı polkunun Xocalıda törətdikləri heç kəsin yadından çıxmayıb. Bölgəyə yenidən Rusiya qoşunları yeridilərsə, həmin qüvvələrin 366-cı polkun cinayətlərini təkrar edəcəyinə heç kəsdə şübhə olmamalıdır. Rusiya qoşunlarının hər hansı ad altında Qarabağa yerləşdirilməsi həmin ərazilərin birdəfəlik və qəti şəkildə itirilməsi demək olacaqdır". QAT bəyan edib ki, qurum ümumiyyətlə, " sülhməramlı" adı altında hər hansı qüvvələrin Qarabağa yerləşdirilməsinin qəti əleyhinədir: "Ermənistanın işğalçı qüvvələri Dağlıq Qarabağ və digər işğal olunmuş ərazilərdən qeyd- şərtsiz çıxarılmalı, bundan sonra isə sülhməramlı qüvvələr Azərbaycanla Ermənistanın sərhədlərinə yerləşdirilməlidir ki, Ermənistan bir daha Azərbaycana qarşı təcavüzkarlıq təşəbbüsündə ola bilməsin. Başqa bir variantda biz hər hansı bir ölkənin və ya beynəlxalq təşkilatın " sülhməramlı" təşəbbüsünə inanmırıq. ATƏT Minsk qrupunun və digər beynəlxalq qurumların son 25 ildəki " fəaliyyəti" , verdikləri yarıtmaz təkliflər, tutduqları ermənipərəst mövqe bizə bunu deməyə əsas verir. Biz bir daha bəyan edirik ki, Azərbaycan yalançı vədlərə inanmamalı, növbəti məkrli planların həyata keçirilməsinə imkan verməməlidir. Bu məsələdə hakimiyyət və xalq vahid mövqedən çıxış etməlidir".

**Hələlik rəsmi Bakı məsələyə münasibət bildirməyib. XİN bir qayda olaraq, mətbuat yazılarını şərh etmədiyini bəyan edir.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 246 (6274) 5 noyabr 2015

# Toyqabağı müayinədən keçən 161 gəncdə sifilis tapıldı



**“Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydası”na uyğun olaraq iyunun 1-dən bu günə kimi nikaha daxil olmaq istəyən 63 800 nəfər tibbi müayinədən keçib".**

**Bu barədə “Report”a B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlimirzəyeva məlumat verib.**

Onun sözlərinə görə, həmin şəxslərin 4 213 nəfərinin talassemiya daşıyıcısı olduğu aşkarlanıb: “Onların özlərinə də məlumat verilib. Hətta onların arasında evlənməyənlər də olub. Müalicələrin nəticələri həmin şəxslərin qeydiyyatda olduğu tibb müəssisələrinə göndərilir. Eyni zamanda, müayinə aparıldığı gündən bu yana 32 cütlükdə, yəni cütlüyün hər ikisində də talassemiya olduğu məlum olub”.

**İnstitut direktoru onu da vurğulayıb ki, son beş ayda 45 nəfərdə İİV infeksiyası, 161 nəfərdə isə sifilis qeydə alınıb:** “İİV infeksiyası ilə bağlı məlumatlar Respublika QİÇS-lə Mübarizə Mərkəzinə göndərilib. Çünki həmin şəxslər təkrar müayinədən keçməlidir. Buna səbəb bizim yoxlamaların ilkin addım olmasıdır”.

Qeyd edək ki, “Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında” qanunun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiqlənməsi ilə əlaqədar bu il iyunun 1-dən etibarən nikaha daxil olmaq istəyən vətəndaşların tibbi müayinədən keçmələri məcburiləşdirilib.

Nazirlər Kabineti tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə qaydaları təsdiqlənib, tibbi müayinə olunmalı xəstəliklərin siyahısı müəyyənləşdirilib. Bu məqsədlə səhiyyə müəssisələrində zəruri şərait yaradılıb.

Tibbi müayinə və məsləhətlər nikaha daxil olmaq istəyən şəxslərin və ya onlardan birinin yaşayış yeri üzrə Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilən dövlət tibb müəssisəsində həyata keçirilir. Tibbi müayinənin keçirilməsi və məsləhətlərin verilməsi pulsuz aparılır.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**





# Koda düşən qaz sayğacını necə açmalı?

**Azeriqaz İB-i koda düşən qaz sayğaclarını açılmasını abonentlərə yönəldib. AzVision.az xəbər verir ki, yəni ki hər bir abonent öz sayğacını öz smart kartı ilə aça biləcək.**

Bunu necə etməli?

1. Smartkartınıza 1 azn pul yükləyirsiz. (Yüklədiyiniz 1azn xidmət haqqı deyil)

2. Sayğacın girişindəki krantı bağlayırsız

3. Kartı sayğaca daxil edirsiz. Ekranda sol tərəfdə “9" və ”——-" xətt olanda barmağınız ilə “Göy” düyməni sıxırsız. Sonra ekrana “OP190" yazısı gələndə barmağınızı düymədən götürüsüz. Geriyə say başlayıb bitəndə sayğacın girişindəki krantı açıb qazdan istifadə edirsiz.


**Elan**

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**

**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**

**Tel: (050) 614-40-24**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34




# Paytaxtda onlarla evdən oğurluq edən 24 yaşlı qadın yaxalandı

**Bakıda oğurluqda şübhəli bilinən qadın saxlanılıb. Bakı şəhər Baş Polis İdarəsindən APA-ya verilən məlumata görə, Yasamal rayon 29-cu Polis Bölməsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində, oğurluqda şübhəli bilinən, daimi qeydiyyatı olmayan 1991-ci il təvəllüdlü İranə Musayeva tutulub.**

Araşdırma zamanı onun digər cinayət əməllərinin də üstü açılıb. Belə ki, o, avqustun 3-də II Alatavada Mais Həsənovun, avqustun 5-nə keçən gecə Şamil Kərimovun, avqustun 21-nə keçən gecə, Z.Kərimov küçəsində Mahmud Feyzullayevin, avqustun 25-də M.Məmmədzadə küçəsində Nəsibə Ağayevanın, avqustun 30-na keçən gecə, X.Mustafayev küçəsində Füzuli Muxtarovun, sentyabrın 9-da Z.Kərimov küçəsində Rəşad Rəhimovun, sentyabrın 14-də II Alatavada yaşayan Xəlil Bayramlının, sentyabrın 16-da Zaur Aslanovun, Emin Məmmədovun, sentyabrın 22-nə keçən gecə, V.Əliyev küçəsində Anar Niftəliyevin, sentyabrın 23-də D.Bünyadzadə küçəsində Toğrul Musayevin, oktyabrın 2-nə keçən gecə, II Alatavada yaşayan Könül Hüseynovanın, oktyabrın 12-ə keçən gecə Ədalət Ağayevin, oktyabrın 20-nə keçən gecə Elşən Ağayevin, oktyabrın 25-də Xalid Ağayevin, oktyabrın 23-ə keçən gecə X.Mustafayev küçəsində Yaqut Mahmudovanın evindən, açıq qapıdan keçməklə pul, danışıq kartları, mobil telefonlar, sənədlər, noutbuklar, bankomat kartlarını qarət edib. Avqustun 16-da isə Şərifzadə küçəsində yerləşən xəstəxananın həyətində Naibə Zeynalovaya məxsus içərisində 503 manat olan pul kisəsini oturacağın üzərindən oğurlayıb.

Faktla bağlı araşdırma aparılır.



# Ağsu sakini keçmiş həyat yoldaşını qətlə yetirdi

**Ağsuda qətl hadisəsi baş verib. “Report” xəbər verir ki, hadisə rayonun Ərəbsarvan kəndində törədilib. Ağsunun Çiyni kənd sakini, 1983-cü il təvəllüdlü Kabus Xanlar oğlu Şirinov gecə saatlarında 1975-ci il təvəllüdlü Ərəbsarvan kənd sakini Eyyubova Elnurə Üzeyir qızının evinə gedərək orada mübahisə edib və mübahisə zəminində mətbəxt bıçağı ilə qadına bir neçə bıçaq xəsarəti yetirib. Elnurə Eyyubova aldığı bıçaq yaralarından hadisə yerində dünyasını dəyişib.**

Kabus Şirinov və Elnurə Eyyubovanın birgə nigahdan 2 azyaşlı övladı var və onlar 3 il öncə boşanıblar. Mərhum Elnurə Eyyubova rayonun Hacıqədirli kəndində müəllimə işləyirmiş.

Faktla bağlı Ağsu Rayon Prokurorluğunda cinayət işi açılıb, istintaq gedir.


**Elan**

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**

**Əlaqə telefonu: (050) 343-59-72**






# “İdeal”da saxta ətirlər satılır

## Azad İstehlakçılar Birliyinin sədri: “‘İdeal"dan da bizə şikayətlər gəlib"




**Ətri sevməyən insan yoxdur. Bakıda hər keyfiyyətdə, qiymətdə ətir tapmaq mümkündür. Hazırda bazarda müştəri bolluğu baxımdan “İdeal”, “Sabina”, “Parfume De France”, “La Parfumerie” kimi mağazalar şəbəkəsi bazarın kuratoru sayılır. Düzdür, burada təklif olunan qiymətlər ölkədəki orta əmək haqqına, əksəriyyətin yaşayış səviyyəsinə, əhalinin gəlirlərinə uyğun deyil. Amma bir çox insanlarımız yolunu bu mağazalardan salır.**

**Bəs əslində bu mağazalarda bizi aldatdıqlarını bilirsinizmi?**

Redaksiyamıza “İdeal”la bağlı şikayət daxil olub. Şikayətdə müştəri baha qiymətə aldığı ətirlərin keyfiyyətsiz olduğunu və iyinin qalmadığından şikayətlənirdi.

**Bu şikayətlə əlaqədar “28 Moll” ticarət mərkəzində yerləşən “İdeal” mağazasına üz tutduq.** Buradakı ətirlər baha olsa da, qiymətləri kimi yüksək deyildi və bu ətirlərin iyləri tibbi spirti xatırladırdı. Ətir müxtəlif qoxulu maddələrin spirtdə həll edilmiş qarışığı olsa da, spirt dozadan artıq olanda alınan məhsul ətir sayıla bilməz. Beynəlxalq təcrübəyə əsasən, ətir ona qarışdırılan spirtin miqdarına uyğun dəyərləndirilir. Spirt nə qədər az olarsa, ətir o qədər keyfiyyətli hesab olunar. Burada saxta ətirlərin satışı iddialarına gəlincə isə müəyyən qədər reallıq vardı. Çünki baha qiymətə bəh-bəhlə satılan ətirlərin testerini yoxladıq və artıq 30 dəqiqə keçdikdən həmin ətrin iyini hiss etmirdik. Qiymətlərə gəlincə isə “İdeal” mağazasından ətir alan şəxsin cüzdanında gərək ən azı 40-50 manat olsun. Çünki buradakı ən ucuz ətrin qiyməti 40 manatdır. Bəs bu qədər bahalığa səbəb nədir?

Qeyd edək ki, parfümeriya məhsullarına gömrük rüsumu çox deyil. Məsələn, ətirlər üzrə gömrük rüsumu 3303 00 100 0 kodu ilə 15 faiz , tualet suyu 3303 00 900 0 kodu ilə yenə 15 faiz təşkil edir. Digər kosmetika növləri üzrə də rüsum 15 faizdir. Bura 18 faiz əlavə dəyər vergisini də əlavə edib hesablasaq yenə də qiymətlər “İdeal”dakına çatmır.

**“İdeal”ın endirim kampaniyaları da diqqət çəkir.** 2009-cu ildən endirim kartlarının tətbiqinə başlayan şəbəkənin kartlarının yararlılıq “şərtləri” fantastikdir. Yəni bir neçə faizlik endirim qoparmaq üçün “İdeal”dan böyük həcmdə və dəyərdə kosmetika alınmalıdır. Konkret olaraq müştəri “Gold” kartı əldə etmək məqsədilə 600 manatlıq alver edib 15 faizlik endirimə nail olmalıdır. 20 faizlik “VİP” kart üçün alverin həcmi 1200 manatdır. Mağazalar şəbəkəsində “Premium” kart da var. Burada isə alverin dəyəri 3500 manatdır.

Ətrin orijinal olub-olmadığını müəyyən etməyə gəlincə isə orijinal ətirlərdə qablaşdırma çox səliqəli olur. Çox az hallarda ərəb markalarında bu nüansa fikir verilmir. Bütün tanınmış markaların ətirləri sellofan qutunun üstünə sıx oturur. Bundan başqa, orijinal ətirlərdə şüşə şəffaf olmalıdır. Amma Türkiyə və ya Çin istehsalı olan ətirlərdə şüşə tünd olur, yazılar bir-birinə qarışır. Bir məsələ də var ki, ştrix kodlarının olmasına aldanmaq olmaz. Ştrix kodları saxta yolla elə çap edirlər ki, ayırmaq olmur.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** da “İdeal”dan çoxlu sayda şikayətlər gəldiyini dedi: “Azərbaycanda parfümeriya malları və ətirlər geri qaytarılmayan siyahısındadır. Mən buna çox təəssüflənirəm. Bundan istifadə edən biznes qurumları qanundakı boşluqdan istifadə edirlər. Hökumət orqanlarının biganə mövqeyi insanların aldanmasına səbəb olur. Təsadüfi deyil ki, ardıcıl olaraq İsraildən gətirilən ”Beşeli” firmasının mallarından çoxlu sayda şikayətlər gəlir. Bu malları əhaliyə 2-3 minə satır, nisyə verirlər. bundan sonra isə məhkəmə iddiaları qaldırılır. “İdeal”dan da bizə şikayətlər gəlib. Təsadüfi deyil ki, “İdeal”ın xaricdən gəlmiş nümayəndələri dəfələrlə bizim ofisimizdə olublar. Lakin biz çox təəssüflər olsun ki, istehlakçı hüququnu qorumağa müvəffəq ola bilməmişik. İstehlakçının şikayətini dövlət orqanına göndərmişik. Ancaq dövlət orqanı da istehlakçının hüququnu qorumaq mövqeyi göstərməyib".

**Qurum sədri ətirlərin üzərində buraxılma və son yararlılıq müddətinin olmasının vacib olduğunu dedi:** “Ətrin istehsal və yararlılıq müddəti şüşənin üzərinə yapışdırılan kağızda həkk olunmalıdır. Əgər bu hansısa haloqram və başa düşülməyən pullar şəklindədirsə, alıcılar belə ətirləri almaqdan imtina etsinlər. İdealda bu problemlər yaşanır. Hətta bizim ofisə gələn xarici rəsmi nümayəndələr də istehlakçı hüquqlarına biganə qalıblar və qanundakı boşluq səbəbindən parfümeriya biznesi sürətlə inkişaf edir. Qeyd etdiyim kimi dövlət orqanı da buna seyrçi mövqeyində qalır. Bunun da səbəbi odur ki, hər bir biznesin arxasında dövlət məmuru durur. Prezidentin son vaxtlar apardığı işlər həmin bizneslə məşğul olan o məmurlara yaxşı bir mesaj olmalıdır və bundan dərs almalıdırlar ki, özlərini yığışdırsınlar”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Misirə getmək istəyənlərin sayı azalıb

## Təyyarə qəzasından sonra insanlar bu istiqamətə getməyə ehtiyat edir



**Xəbər verdiyimiz kimi, bir neçə gün öncə Misirdən Sankt-Peterburqa uçan və içində 217 sərnişinin və 7 ekipaj üzvünün olduğu Rusiyanın sərnişin təyyarəsi havaya qalxdıqdan 23 dəqiqə sonra qəzaya uğrayıb. Təyyarənin qəzaya uğrama səbəbləri ilə bağlı müxtəlif fikirlər səslənir. Kimiləri təyyarənin İŞİD tərəfindən vurulduğunu və bunun terror hadisəsi olduğunu bildirir, kimisi isə təyyarədəki nasazlığın bu qəzaya səbəb olduğunu düşünür.**

Qeyd edək ki, bu hadisə Azərbaycanda da müəyyən qədər təşvişə səbəb olub. Qarşıdan Yeni il gəlir, bu ərəfədə bir çox vətəndaşlarımız xarici ölkələrə, o cümlədən Misirə səfər edir, təzə ili orada qarşılayırlar. Ancaq bu hadisə Misir istiqamətinə bilet almaq istəyən sərnişinlərin bir qrupunu fikrindən daşındırıb.

Bir neçə turizm şirkəti ilə əlaqə saxlayıb Misir istiqamətində bilet satışının olub-olmaması ilə maraqlandıq.

**“Royal Travel”in tur operatoru Əziz Məmmədov** son günlər bu istiqamətdə biletlərin az satıldığını dedi: “Misir istiqamətində uçuşlar az olur. Ancaq bu istiqamətdə əvvəlcədən bilet bron etdirib, qaytaranlar olmayıb. Bu istiqamətində uçuşlarımız var. Ancaq bu uçuşlar Tiflisdən olur. Hələ ki, heç kim Misir istiqamətində uçmağa qorxduğunu və bundan narahat olduğunu deməyib”.

“Royal Travels & Services”-dən sərnişinlərə Şarm əl-Şeyxə turpaketlər təklif edildiyini, ancaq uçuşun Tbilisidən “Pegasus” ilə təşkil olunduğunu bildirdilər.

**“Dervish Travel” turizm şirkətinin direktoru Nadir Nadirov** onlara müraciət edən adamlarda müəyyən narahatlıq olduğunu dedi: “Misirə uçuş Tiflisdən həyata keçir. Bakıdan Misirə uçuşlar yoxdur. Əvvəlcədən Misirə getmək üçün bilet almış insanlar bizə müraciət edir və Rusiya ilə bağlı son olaya görə narahat olduqlarını, eyni hadisənin onlarında başına gəlmələrindən qorxduqlarını deyirlər. Amma bu biletlərin qaytarılması kontraktdan asılıdır. Sərnişinlə bağlanan müqavilədə yazılır ki, hansı müddətə kimi bileti pulsuz qaytarmaq olar. Əgər dövlət, Turizm Nazirliyi tərəfindən deyilsə ki, Misirə uçmaq problemlidir, təhlükəlidir o zaman tur paketləri, biletləri bir qəpiksiz qaytara bilərlər. Amma dövlət tərəfindən belə əmr verilməyibsə, müştəri tur paketi alanda orada nə yazıldığını nəzərə almalıdırlar. İnsanlarda qorxurlar və buna görə də tur paketləri geri qaytarmaq istəyənlər var”.

**Digər turizm şirkətləri də Misirə getmək istəyənlərdə müəyyən təşviş olduğunu və gedəcək sərnişinlərin gəlib təhlükəsizliklə maraqlandığını deyirdilər. Əlaqə saxladığımız turizm şirkətlərinin demək olar ki, hamısı onların tur paketləri ilə heç bir təhlükənin olmadığını bildirdilər.**

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 246 (6274) 5 noyabr 2015




## Balığı həftədə 2 dəfə yeyin

Həkimlər bildirirlər ki, həftədə 2 dəfə 300 qram balıq yemək xəstəliklərə qarşı güclü vasitədir. Balıq əti, A, D, K vitamini və B qrupu vitaminlər (B1, B2, B6, B12) baxımından zəngindir. Balıq yağ turşularının ürək-damar, şəkər xəstəliyi və xərçəng kimi əhəmiyyətli xəstəliklərə tutulma riskini azaltdığını bildirilir. Ölkəmizdə olduqca tez-tez rast gəlinən ürək-damar xəstəlikləri, şəkər xəstəliyi və xərçəng kimi bir çox xəstəlikdən qorunmada əhəmiyyətli səhiyyə təsirlərinə malikdir. Bu müsbət təsirlərin təmin edilə bilməsi üçün həftədə ən az 2 dəfə 300 qram balıq yeməyi məsləhət görürlər. Xüsusilə beyin inkişafını sürətli inkişafı ana bətnindən başlayır, ilk 0-3 yaş dövrü üçün balığın ayrı bir əhəmiyyəti vardır. Bioloji dəyəri yüksək zülal və əsas amin turşu qaynağı olan balıq, çoxlu doymamış yağ turşuları ilə beyin inkişafına müsbət təsir edir. Bu səbəbdən xüsusilə hamiləlikdən etibarən hamilə qadınlar və 7 aydan etibarən tamamlayıcı bəslənməyə başlayan körpələrin yediyi balığın beyin inkişafını müsbət istiqamətdə təsir edəcəyi bildirilir. Bununla birlikdə, zülal məzmunu zəngin olduğundan digər qidalarda olduğu kimi balıq da saxlama, hazırlama və bişirmə qaydalarına diqqət edilmədiyində asanlıqla sağlamlıq risklərinə yol aça bilməkdədir.

# Gizli evlilik üçün 31 milyon təzminat aldı



2005-ci ildə ölən kral Fəhd Əddüləziz əl Suudun "gizli arvadı" olduğunu iddia edən Canan Farb adlı fələstinli qadın krallıq ailəsindən 31 milyon dollar təzminat alıb. "Guardian" qəzetinin xəbərinə görə, hazırda 68 yaşı olan Farb 19 yaşında ikən kral Fəhdlə gizlicə evlənib. O zamanlar kral Fəhd şahzadə imiş. Krallıq ailəsi isə bunun rəsmi evlilik olmadığını deyir. Kral Fəhd ilə birlikdə xarici ölkələrə səhərə getdiyi deyən qadın kralın öğlunun ona dəyəri 12 milyon dollar olan iki ev vəd etdiyini deyib. Məhkəməyə gəlməyən kral iddiaları rədd etsə də, məhkəmə Farbın haqlı olduğuna qərar verib. Uzun müddət davam edən məhkəmə prosesindən sonra qadın 31 milyon dollar təzminat ödənilməsinə qərar verilib. Məlumat üçün bildirək ki, Canan Farba daha əvvəl susması üçün 5 milyon dollar ödənilib, lakin o, 5 verilən pulu qumar masalarında xərcləyib.

# Siqaretdən asılılığa son qoyacaq 10 vasitə

İndiki zamanda cəmiyyətimizdə siqaretlərdən istifadə edənlərin sayı getdikjə çoxalmaqda davam edir. Bunun qarşısını almaq üçün 10 asan vasitədən istifadə edə bilərsiniz. Siqareti tərgitdikdə həyatı asanlaşdıracaq və səhiyyə baxımından gücünüzü artıracaq qidaların nələr olduğunu bilirsinizmi?

1. Portağal suyu
2. Yulaf əzməsi
3. Yaşıl yarpaqlı səbzələr
4. Pomidor
5. Banan
6. Alma
7. Zəncəfil
8. Sarımsaq
9. Evkalipt
10. Keçibuynuzu





## Hansı kişilər daha çox aldadır?

Hindistanda və Amerikada 18-72 yaşlı kişilər arasında aparılmış araşdırma nəticəsində məlum olub ki, saqqalı kişilərin sevgililərini, ya da həyat yoldaşlarını aldatma ehtimalı digərləri ilə müqayisədə daha çoxdur. Mütəxəssislərin sözlərinə görə, araşdırmada iştirak edən kişilərin 65%-i amerikalı, 86%-i isə hindistanlılar imiş. Onlardan aparılan sorğu göstərib ki, saqqallı kişilər qadınların cəmiyyətdəki yeri haqqında aqressiv fikirlərə sahibdirlər. Araşdırmada iştirak edən kişilərin 47%-i keçmişdə sevgililərini və ya həyat yoldaşlarını aldatdıqları deyiblər. Onlardan yalnız 20%-i qadınları aldatmadıqlarını dilə gətiriblər. Mütəxəssislər saqqalla aldatma arasında heç bir əlaqə tapmadıqlarını, qadınlara qarşı neqativ fikirləri olan kişilərin saqqal saxlamağa meylli olduqlarını düşündüklərini deyiblər.




**QOÇ** - Hansısa narahatçılığa əsas yoxdur. İştirakçısı olduğunuz proseslər müsbət istiqamətdədir. Hətta maddi durumunuzun da yaxşılaşacağı mümkündür. Məsuliyyətinizi dərk edin.

**BUĞA** - Göy qübbəsi təzadlar ümmanına düşməyinizdən xəbər verir. Bu səbəbdən hər addımda ağıllı və tədbirli davranmalısınız. Fəaliyyətlə bağlı problemləriniz tədricən qaydasına düşəcək.

**ƏKİZLƏR** - Ümumi məziyyətlərinə görə bəxtinizə gərgin bir təqvim çıxa bilər. Odur ki, hər addımda tədbirli və ayıq-sayıq olmalısınız. Haqqınızı zorakı üsullarla tələb etməyə çalışmayın.

**XƏRÇƏNG** - İş yerində xırda qanqaraçılığı gözlənilir. Özünüzü ehtiyatlı aparın. Sizi başa düşməyənlərə nəyisə anlatmağa çalışmayın. Əsas diqqətinizi cari iş problemlərinin həllinə yönəldin.

**ŞİR** - Yeni əlaqələr yaratmaqla mövcud problemlərinizi həll etmək imkanı qazanacaqsınız. Müzakirələr zamanı mövzudan kənara çıxmayın. Axşama doğru ürəyinizə yaxın adamlara baş çəkin.

**QIZ** - Perspektivli sövdələşmələr üçün uğurlu vaxtdır. Amma danışıqları yalnız ikili vəziyyətdə aparmalısınız. Bu gün mühüm planlarınızı kiməsə desəniz, onlar reallığını itirə bilər.

**TƏRƏZİ** - Saat 11-13 arası azacıq gərginliklə üzləşsəniz də, günün əsas qayəsi zövqünüzə uyğun tərzdə cərəyan edəcək. Nahardan sonra gözlənilməz və sevindirici hadisələrlə rastlaşacaqsınız.

**ƏQRƏB** - Olduqca uğurlu gündür. İdeyalarınıza doğru ilkin addımlar atmaqdasınız. Tərəfdaşlarınızla səmimi olsanız, bu prosesi sürətləndirə bilərsiniz. Nahardan sonra müqəddəs ocaqlara baş çəkin.

**OXATAN** - Oturaq işlərə müəyyən qədər ara verin. Yoxsa gərginlikdən qurtula bilməyəcəksiniz. Ulduzlar müxtəlif ünvanlardan maraqlı təklif alacağınızı bildirir. Axşam sevinəcəksiniz.

**OĞLAQ** - Baş verən situasiyaları reallığın gözü ilə qiymətləndirsəniz, uğurlarınız çox olacaq. Bu gün sizə qarşı rəğbət artacaq. Bunu nəzərə alıb hərəkətlərinizə diqqət yetirin.

**SUTÖKƏN** - Üzərinizə düşən başlıca vəzifə səhhətinizi qorumaqdan ibarətdir. Hətta bunun naminə işdən yayınmaq da olar. Saat 18-dən sonra sevgi romantikliyinə qapılmağınız məsləhətdir.

**BALIQLAR** - Göy qübbəsi ovqatınızın yüksələcəyinə işarə edir. Mənəvi rahatlığa qovuşmaq üçün imkanlarınız var. Buna baxmayaraq, təkbaşına fəaliyyət göstərməkdən çəkinin. Qazanc barədə düşünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İt olan evə asma girməz



İsveçdəki Uppsala Universitetinin alimləri gerçəkləşdirdikləri yeni bir araşdırmada it saxlanılan evlərdə böyüyən uşaqların astma xəstəliyinə tutulma ehtimalının çox az olduğunu sübut ediblər. Mütəxəssislərin sözlərinə görə, ilk yaşlarında itlə eyni evdə yaşayan uşaqların astma xəstəliyinə tutulma ehtimalının yaşıdlarından 15% daha az olduğunu deyiblər. Toyuq, cücə, qoyun, inək kimi ev heyvanları saxlayan ailələrin uşaqlarında isə asma xəstəliyinə tutulma ehtimalı 52% daha azdır.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300